www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25 yanvar 2016-cı il Bazar ertəsi № 17 (6338) Qiyməti 60 qəpik


**Xəbər**

## Azərbaycanlı məmurun arvadı Türkiyədə 20 milyon dollara 16 villa alıb

yazısı səh.10-da

**Gündəm**

### Müxalifət böhranla bağlı toplandı



Siyasi düşərgə hakimiyyətə təkliflərlə yanaşı, xəbərdarlıq da elədi...

yazısı səh.4-də

### Siyasi məhbuslarla bağlı maraqlı proqnoz

yazısı səh.6-da

### Müxalif partiya sədri böhrandan xilas modeli təklif edir

yazısı səh.9-da

### İntihar etdiyi deyilən biznesmenlə bağlı yeni məlumatlar

yazısı səh.5-də

### Ukraynanın sabiq prezidentindən Kremlə ittiham: "Qarabağda baş vermiş hadisələr terrordur..."

yazısı səh.11-də

### Bakıda qumarxana biznesi çiçəklənir - yeni məkandan görüntülər...

yazısı səh.12-də

### Bizi İran hakimlərinin ayağına aparan qaçılmaz səbəblər - araşdırma

yazısı səh.15-də

### Böhran "Qul bazarı"nı da "vurub": fəhlə çox, iş yox - əməkdaşımızın qeydləri

yazısı səh.12-də

### Restoran və şadlıq evlərində durğunluq hökm sürür

yazısı səh.13-də

### "Özünü asan" aktyor "Yeni Müsavat"a danışdı: "Eşidəndə şoka düşdüm..."

yazısı səh.10-da

# Azərbaycan üçün kritik həftə

# ÖLKƏMİZƏ QARŞI DİPLOMATİK SAVAŞ BAŞLAYIR - BAKI ÇARPAZ ATƏŞ ALTDA

Rəsmi Bakı yeni demokratiya və Qarabağ testi qarşısında; AŞPA-nın qış sessiyasında gedəcək müzakirələr və qəbul ediləcək qətnamələr ABŞ Konqresində ölkəmizlə bağlı sənədin də aqibətinə təsirsiz ötüşməyəcək; iqtidarın təhdidlərə qarşı ən effektli ön hazırlığı siyasi dustaq probleminin həlli ola bilər...




yazısı səh.8-də

## İcra başçısı özünə zirehli maşın alıb - 500 min dollara!

Elmar Vəliyevin LEXUS-unun xüsusi sifarişlə yığıldığı iddia olunur; hökumət qənaət rejiminə keçdiyi vaxt icra başçısı nədən israfçılıq edir?

yazısı səh.5-də




### Özünü asan MTN zabiti təcridxanada Pərviz Həşimliyə nə deyib?

yazısı səh.5-də



*Fazil Mustafa:*

### "Dollarla olan kreditlərin ödənişi köhnə məzənnə ilə olmalıdır"

yazısı səh.7-də



### Elman Rüstəmov sual qarşısında: 5 min, yoxsa 10 min dollar?

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 17 (6338) 25 yanvar 2016

## "İcra başçıları yola salınacaq" - deputatdan açıqlama



**"Fəaliyyətində nöqsan olan icra başçıları işdən çıxarılmalıdır. Hesab edirəm ki, prezident bununla bağlı ciddi addımlar atacaq". Bunu azvision.az-a açıqlamasında millət vəkili Vahid Əhmədov deyib.**

Deputat Hesablama Palatasının apardığı yoxlamalar nəticəsində bəzi icra hakimiyyətlərində nöqsanların ortaya çıxdığını bildirib: "Hesablama Palatasının apardığı yoxlamalarda korrupsiya halları aşkarlanır. Onlar arasında İcra hakimiyyətləri də var. Mütəmadi olaraq palatanın hazırladığı materiallara baxış keçirilir və dövlət tərəfindən qərarlar verilir. Hesab edirəm ki, bu barədə müəyyən inzibati tədbirlərin görülməsinə ehtiyac var. İcra hakimiyyəti orqanında mənimsəmə, korrupsiya faktları varsa, həmin şəxs vəzifədən kənarlaşdırıla və məsuliyyətə cəlb olunmalıdır. Bu dövlət rəhbərinin mövqeyindən asılı olan məsələlərdir".

Qeyd edək ki, Hesablama Palatasının apardığı yoxlamalar zamanı bəzi icra hakimiyyətlərində ciddi nöqsanlar aşkar edilib. Məlum olub ki, dövlət tərəfindən ayrılan vəsaitlər düzgün istifadə olunmayıb, büdcə vəsaitlərinin təyinatı dəyişdirilib, əmək haqqının hesablanılması zamanı əlavə və artıq ödənişlərə yol verilib.

## Eldar Namazova ağır itki



**"El" Hərəkatının sədri Eldar Namazovun dayısı, Deportasiya Qurbanları Cəmiyyətinin İdarə Heyətinin üzvü Tofiq Seyidov yanvarın 24-də vəfat edib.**

Tofiq Seyidov müxtəlif dövrlərdə yüksək vəzifələrdə çalışıb. Milli-azadlıq hərəkatının iştirakçılarından olub. Azərbaycanda demokratiya uğrunda mübarizə də iştirakçı olub. Deportasiya Qurbanları Cəmiyyətinin İdarə Heyəti Eldar Namazova dayısının vəfatı ilə bağlı başsağlığı verib. "Yeni Müsavat"ın kollektivi də bu başsağlığına qoşulur.

Allah rəhmət eləsin.

❑ E.SEYİDAĞA

## İranla Yunanıstan neft satışı üzrə saziş imzaladı

**Yunanıstanın Dövlət Neft Şirkəti ("Hellenic Petroleum") ilə İranın Milli Neft Şirkəti (NIOC) arasında neft satışı ilə bağlı uzunmüddətli çərçivə sazişi imzalanıb. "Report"un yunan mediasına istinadən verdiyi məlumata görə, sazişi İranın neft nazirinin beynəlxalq məsələlər üzrə müavini Əmir Hüseyin Zamani Niya və Yunanıstanın Ekologiya və energetika naziri Panos Skourletis imzalayıb.**

Müqavilənin şərtlərinə görə, NIOC ilkin mərhələdə "Hellenic Petroleum"un tələbatının 25%-ə qədər olan hissəsini təmin etməyi öz öhdəsinə götürüb. Qarşılığında isə Yunanıstan köhnə borcların qaytarılması ilə bağlı məsələlərə baxacağını öhdəsinə götürüb.

Məlumata görə, bu İrana qarşı tətbiq edilən sanksiyaların ləğvindən sonra rəsmi Tehranın neft sahəsində imzaladığı ilk razılaşmadır. Tərəflər həmçinin, qaz və elektrik enerjisi ilə bağlı məsələləri müzakirə edib. Hər iki ölkə çərçivə sazişinin tezliklə icrasına başlayacağını açıqlayıb. Skourletis deyib ki, Yunanıstan Avropa İlə İran arasında körpü rolunu oynaya bilər.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

# Elman Rüstəmov sual qarşısında: 5 min, yoxsa 10 min dollar?



**"Azərbaycanda əhalinin 10 min dollara qədər olan istehlak kreditlərini köhnə məzənnə ilə qaytarması məsələsi hələ də gündəmdədir". Bu barədə AzVision.az-a açıqlamasında millət vəkili Vahid Əhmədov bildirib.**

Deputat qeyd edib ki, bu istiqamətdə Azərbaycan Mərkəzi Bankı ilə məsləhətləşmələr aparılır: "Təklif edirik ki, 10 min dollaradək kreditlər köhnə məzənnə, yəni 1,05 manatla qaytarılsın. Bu məsələ hələ ki, həllin tapmayıb. Görünür, bununla bağlı fikir ayrılığı var. 10 min dollaradək kreditlərin köhnə məzənnə ilə qaytarılması düzgün olardı. Hazırda Mərkəzi Bank ilə hökumət arasında danışıqlar aparılır və vəsaitin mənbəyi axtarılır. Vəsaitin hökumət, yoxsa Mərkəzi Bank tərəfindən verilməsi məsələsi müzakirə olunur. Bu qanun layihəsi deyil, hökumətə edilmiş təklifdir. Milli Məclisin buna qərar verməyə ehtiyacı yoxdur. Bu artıq Azərbaycan hökumətinin və bankların məsələsidir".

Qeyd edək ki, Milli Məclisin növbədənkənar iclasında jurnalistlərə açıqlama verən Mərkəzi Bankın sədri Elman Rüstəmov bildirib ki, 5 min dollara qədər olan kreditlərə güzəşt oluna bilər və hazırda bu məsələ hökumətin gündəliyindədir. Baş bankir qeyd edib ki, 5 min dollara qədər olan kreditlər kredit portfelində 250 milyon dollar təşkil edir.

"Hazırda biz güzəştlərin verilməsi üçün mənbənin axtarılması üzərində işləyirik. Ola bilsin ki, bu fiskal qaydada həllini tapsın. Amma bununla bağlı nə vaxt qərar veriləcəyi məlum deyil. Maliyyə mənbəyi tapılandan sonra bilinəcək".



## Dağıstanda Putinə və Kadırova dəstək yürüşünün qarşısı alındı

**Dağıstanda yerli "OMON" Rusiya prezidenti Vladimir Putinə və Çeçenistan rəhəri Ramzan Kadırova dəstək məqsədi ilə keçirilən avto-yürüşün qarşısını alıb. Virtualaz.org bildirir ki, bu barədə yerli "Çernovik" qəzeti məlumat yayıb.**

Bildirilir ki, tədbir dünənə nəzərdə tutulubmuş. Avto-yürüş iştirakçıları səhər saat 7.30-da Gizlərdən Qudermesə istiqamət götürməli, orada isə Kızılyurd-Mahaçqala-Kaspiysk-İzberbaş-Dərbənd marşrutu üzrə Çeçenistandan gələn avtomobil karvanına qoşulmalıymış. Amma polis maşın karvanının qarşısını kəsib.

Hadisə şahidlərinin sözlərinə görə, "OMON" əməkdaşları hətta Putinlə Kadırovun birgə plakatlarını da cırıblar. Nəşrin yazdığına görə, avto-yürüşün təşkilatçıları sırasında Dağıstan üzrə Pensiya Fondunun sabiq rəhbəri Saqid Murtuzəliyevin tərəfdarları da olub.

## Mirşahin evə buraxılıb




**Xəbər verildiyi kimi, dünən ANS şirkətlər qrupunun vitse-prezidenti Mirşahin Ağayev səhhətində yaranmış problemlərlə bağlı xəstəxanaya yerləşdirilmişdi.**

Mərkəzi Klinik Xəstəxanasından Qafqazinfo-ya daxil olan məlumata görə, jurnalist artıq evə buraxılıb. Belə ki, Mirşahin Ağayev artıq özünü yaxşı hiss edir və həkimlərin məsləhəti ilə bu gün səhər xəstəxananı tərk edib.

Xatırladaq ki, yanvarın 22-də Milli Teleradio Şurası ANS telekanalında yayımlanan, müəllifinin və aparıcısının məşhur telejurnalist Mirşahin Ağayev olduğu "Hesabat" verilişinin bir ay müddətinə dayandırılması barədə qərar qəbul etmişdi. Sırağagün MTRŞ keçirdiyi mətbuat konfransında bu qərarın ləğv edildiyini açıqlayıb.

## Təbrizdə ölən azərbaycanlı uşağın meyiti ailəsinə verildi



**İran İslam Respublikasının Təbriz şəhərinin "Kudəkan" xəstəxanasında vəfat edən Dadaşzadə Qorqud Rövşən oğlunun meyiti dünən ailəsinə verilib. Mərhumun əmisi Şəhriyar Dadaşov APA-ya bildirib ki, adının açıqlanmasını istəməyən Azərbaycan vətəndaşı xəstəxanaya olan borcun yarısını ödəyib. Onun sözlərinə görə, borcun qalan hissəsini isə xəstəxana güzəşt edib:**

"Meyitin "morq"da saxlanılması ilə əlaqədar 4000 manat borc yaranmışdı. Hazırda meyitin Azərbaycana gətirilməsi üçün sənədləşdirmə işləri aparılır". Ş. Dadaşov bu məsələnin həllini tapmasında yardımçı olan hər kəsə təşəkkürünü bildirib. "Baş Konsulluğun Təbriz Tibb Universiteti və digər orqanlarla apardığı danışıqlar və xahişi əsasında xəstəxana xərclərində güzəştlər və endirimlər olunub". Bunu isə Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğundan bildiriblər. Qeyd edək ki, 2015-ci il aprelin 24-də Cəlilabad rayonunda anadan olan Dadaşzadə Qorqud Rövşən oğlu Təbriz şəhərində "Kudəkan" xəstəxanasında ağciyərinə düşən infeksiya nəticəsində bu il yanvarın 20-də dünyasını dəyişib. Həkimlər 3200 manat borcu əsas gətirib, uşağın meyitini verməkdən imtina edirdilər.



## Bu gün şaxta, çovğun olacaq

**Yanvarın 25-də Bakıda və Abşeron yarımadasında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə sulu qara, qara keçəcəyi gözlənilir. Güclü şimal-qərb küləyi əsəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinə istinadən bildirir ki, emperatur gecə və gündüz 0-2° isti, axşam 1°-dək şaxta olacaq.

Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2-7° şaxta, dağlıq ərazilərdə 10-14° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacağı gözlənilir. Yolların buz bağlayacağı ehtimal edilir.

Azərbaycan rayonlarında arabir qar yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı ehtimal edilir. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-5° şaxta, gündüz 0-5° isti olacaq. Yolların buz bağlayacağı ehtimalı var. Dağlarda gecə 8-13° şaxta, gündüz 2-7° şaxta olacağı gözlənilir. Çovğun olacağı, yolların buz bağlayacağı ehtimalı var.

## Bakıda Banqladeş vətəndaşları yoxa çıxıb

**Bakıda şirkətlərdən birində çalışan Banqladeş vətəndaşları itkin düşüb. Lent.az-ın məlumatına görə, Banqladeş vətəndaşı, 1980-ci il təvəllüdlü Montay Camal və 1987-ci il təvəllüdlü Liton Miahın işlədiyi şirkətin rəhbərliyi hüquq-mühafizə orqanlarına müraciət edərək bildiriblər ki, hər iki şəxs bir neçə gündür ki işə gəlmir və kirayə yaşadıqları, E.Dilanova adlı vətəndaşa məxsus olan evdən çıxdıqdan sonra onlardan xəbər almaq mümkün olmayıb.**

Ərizədə qeyd edilib ki, hər iki şəxs Bakıda fəaliyyət göstərən şirkətdə qaynaqçı işləyib. Müraciət əsasında araşdırma aparılır.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 17 (6338) 25 yanvar 2016



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# İtkin neftçilərin axtarışı dayandırılıb?

## Neftçilər aksiya keçirməyi planlaşdırır; **Mirvari Qəhrəmanlı:** "Hələ də faciə ilə bağlı günahı olanlar cəzalandırılmayıb…"

**"Günəşli" yatağının 10-cu Dərin Dəniz Özülündə baş verən dəhşətli hadisədən 52 gün ötür. Bu müddət ərzində itkin düşən 30 neftçidən 11-nin cəsədi tapılsa da, digərlərinin axtarışları səmərəsiz qalıb. Artıq onlarla bağlı uzunmüddətli axtarışlar dayandırılıb.**



Qeyd edək ki, 10-cu platformadakı yanğın hələ də davam edir. Hadisə baş verən özüldə təmir-bərpa işləri aparılır. Qəza zamanı həlak olan neftçilərə sığorta ödənişinin bu ayın sonunda ediləcəyi gözlənilir. Sığorta ödənişi 26 min manat və 92 min manat arasında dəyişəcək.

Bundan başqa, ailələrə baş nazir **Artur Rəsi-Zadənin** sərəncamı ilə Ehtiyat Fondundan 15 min manat birdəfəlik maddi yardım ödənilib. Birdəfəlik yardım itkin düşən və dünyasını dəyişən bütün neftçilərin ailələrinə verilib. Sığorta ödənişi isə hələ ki ölən neftçilərin ailələrinə veriləcək. Neftçilərin ölümlərini təsdiq edən sənədlər hazırdır və təhqiqat işləri də başa çatdıqdan sonra sığorta ödənişləri ediləcək.

Onu da xatırladaq ki, itkin düşən neftçilərin ailələrinə onların itkin düşməsindən 6 ay keçdikdən sonra sığorta pulu ödənilə bilər.

Neftçilərin Hüquqlarının Müdafiəsi Təşkilatının sədri Mirvari Qəhrəmanlı bildirdi ki, hadisə ilə bağlı yaradılmış komissiya və Dövlət Neft Şirkətinin mətbuat xidməti ictimaiyyətə bu barədə tez-tez məlumat verməlidir: "Belə bir rəy yaranıb ki, itkin neftçilərlə bağlı aparılan axtarışlar dayandırılıb. Çünki ictimaiyyətə məlumat verilmir. Açığı, bir vətəndaş kimi, aparılan işləri müsbət qiymətləndirmirəm. Mənə elə gəlir ki, artıq axtarışlar dayandırılıb. İtkin düşənlərin ailələri də ümidlərini tamamən üzüblər. Cəmiyyət də bu hadisəni unudub. Hər kəs ağır problem olan iqtisadi böhranın şokundadır. Çox unutqan xalq olduğumuz bir daha ortaya çıxdı. Dənizə qərənfil atanlar da itkin neftçilərimizi unutdular. Ailələr gözləmə mövqeyindədirlər. Gözləyir ki, ya cəsədlər təhvil verilsin, ya da ölüm haqqında arayış. Ailələr istəyir ki, ailə başçısı həyatını itirmiş kimi qəbul olunsun. Çünki belə olduqda kompensasiya veriləcək. Əks təqdirdə, itkin şəxslərin ailələrinə yardım edilməyəcək. Birdəfəlik kompensasiya veriləcək, sonra həmin şəxslər və ailələri unudulacaqlar. Bu ailələr şirkətin nəzarətində olmalıdır. Hazırda bu məsələlərlə bağlı qeyri-müəyyənlik hökm sürür. Fevralın 4-də hadisənin iki ayı tamam olur. Platformalarla əlaqələrim davam edir. Hələ də faciə ilə bağlı günahları olan şəxslər cəzalandırılmayıb. Belə dəhşətli faciə olan yerdə kimsə özünü günahlar bilib hələ də istefa verməyib".

M.Qəhrəmanlı yanvarın sonlarında hadisə ilə bağlı hesabat xarakteri daşıyacaq mətbuat konfransı keçirəcəklərini bildirdi: "Ayın sonunda mətbuat konfransı keçirib, hadisə ilə bağlı yekun hesabatla çıxış edəcəyik. Orada öz fikrimizi deyəcəyik. Biz hakim, prokuror deyilik. Sadəcə, vətəndaş cəmiyyəti olaraq fikirlərimizi söyləyəcəyik".

Mirvari xanım kompensasiya məsələsində itkin düşənlərin ailələrindən şikayətlərin olmadığını söylədi: "Dövlət Neft Şirkəti heç vaxt sorğuya cavab verən qurum olmayıb. Bir ay bundan qabaq sorğu göndərmişik, hələ də cavab verilməyib. Ümumiyyətlə, "Günəşli" faciəsi ilə bağlı heç bir sorğuya cavab vermirlər. Amma onu da qeyd edim ki, itkin düşən neftçilərin ailələrindən hələ də bizə bu məsələ ilə bağlı şikayət gəlməyib. Sadəcə, xəstəxanada olan bir şəxsdən şikayət gəldi, onunla da Neft Şirkəti görüşdü və problemi ilə maraqlandı".

Təşkilat rəhbəri itkin düşən neftçilərin cəsədlərinin tapılmasının müşkül işə çevrildiyini də qeyd etdi: "Mətbuata açıqlama verəndə daim ehtiyatlı oluram. Çox istəyirik ki, cəsədlər tapılsın. Quruda olan cəsədlərin tapılması çox asandır. Bilirsiniz ki, Böyük Vətən müharibəsindən sonra həyatını itirən şəxslərin bəzilərinin sümükləri ilə şəxsiyyətləri müəyyən edilib, ailələrinə təhvil verildi. İndiki vəziyyətdə çox versiyalar var. Cəsəd dənizin içərisində də ola bilər, sahilə də çıxa bilər. Amma dənizdə qalsa, çürümə gedər, balıqlar yemlənə də bilərlər. Açıq danışmaq lazımdır. Xəzərin okeana çıxışı olmadığından cəsədlərin orada qalması ehtimalı daha böyükdür. Cəsədlərin tapılma ehtimalı getdikcə azalmaqdadır".

Bu arada neftçilərin ixtisarlara görə fevralın 1-də aksiya keçirəcəkləri barədə xəbər yayılıb. M.Qəhrəmanlı bu xəbərə də münasibət bildirdi: "Qarasu Əməliyyat Şirkəti ölkədə ən çox işçi hüquqlarını pozan qurumdur. Təşkilatımıza daxil olan məlumata görə, şirkətin mühəndis texniki işçilərini kadrlar şöbəsinə çağırıb, onları ödənişsiz məzuniyyətə göndərmək üçün ərizə yazdırmağa cəhd ediblər. İşçilərin bəziləri ərizə yazmaqdan imtina edib. Aldığım məlumata əsasən, fevralın 1-də işçilər xəbərdaredici tətil keçirtmək fikrindədirlər. Məlumatı dəqiqləşdirməyə çalışırıq və araşdırma aparırıq. Bu şirkətdə hasilat aşağı düşüb. Şirkət hasilatın pay bölgüsünü imzalayarkən götürdüyü öhdəlikləri yerinə yetirmir, hasilatı qaldırmaqdansa işçiləri öz hesabına məzuniyyətə göndərir. Vəziyyətin davam edəcəyi təqdirdə işçilər etiraz aksiyası keçirəcəklər. Aksiya xəbərdaredici olacaq".

Xatırladaq ki, "Günəşli" yatağında yanğın hadisəsi dekabrın 4-də baş vermişdi. Platformada olan 63 neftçidən 33-ü xilas edilsə də, 30 nəfərin həyatını xilas etmək mümkün olmamışdı. Onu da qeyd edək ki, 19 nəfər neftçidən əlavə, "Neft Daşları"nın itkin düşən 3 əməkdaşının da axtarışları nəticəsiz qalıb. Ümumilikdə, 22 neftçi hazırda itkin sayılır.

❑ **Cavanşir ABBASLI**

# Övladı ilə küçədə qalan ana ədalətin bərpasını tələb edir

## Bakı sakini Sənubər Əhmədova məhkəmələrdə üzləşdiyi qanunsuzluqlardan şikayətçidir



**"İndi Azərbaycan məhkəmələri tərəfindən hüquqları tapdalanan övladımın əsgərlik yaşı çatanda onun hüququ tapdalanmış olduğu bu Vətənə borcu yada düşəcək. Və onu əsgərliyə çağıracaqlar. Bəs onda doğulduğu ölkədə onun hüquqlarının hansı səviyyədə qorunduğu yada düşəcəkmi?" Bu sözlər Bakı sakini Sənubər Əhmədovanın redaksiyamıza surətini yolladığı məktubdan götürülüb.**

Prezident İlham Əliyevə, Ali Məhkəmənin sədrinə, BMT-nin Azərbaycandakı nümayəndəsinə, ABŞ-ın, Norveçin, Rusiyanın Azərbaycandakı səfirlərinə göndərilən məktubda S.Əhmədova Azərbaycan məhkəmələrində üzləşdiyi qanunsuzluqlardan şikayətlənir və tədbir görülməsini istəyir: "Zamir Hacıxanovla 2010-cu ilin noyabr ayında ailə qurmuşdum. Lakin keçmiş həyat yoldaşımın cindarlıqla məşğul olması, narkotiklərdən istifadə etməsi və digər məsələlər birgə yaşayışımızı mümkün etmədi. 2014-cü ilin mayında məhkəmə qərarı ilə boşandıq. Birgə nikahdan isə Məhəmməd adlı oğlumuz dünyaya gəlib. Boşandıqdan sonra məhkəmə qərarı ilə uşaq məndədir. Nikah dövründə Sabunçu rayonu, Sabunçu qəsəbəsi Y.Saratov küçəsi 85 "b" ünvanında 2 otaqlı mənzildə yaşamışıq. Həmin mənzil keçmiş həyat yoldaşımın anasına iş yerindən verilib. Sonra mənzil icarəçiliyini mənzil alan öz qızına dövr edib. Xatırladım ki, mənzil hələ də dövlət əmlakıdır. Boşandıqdan sonra Sabunçu Rayon Məhkəməsində nikah dövründə həmin ailə üzləri ilə birlikdə təsərrüfat apardığımızı və həmin ailənin soyadını daşıyan uşağımızın dünyaya gəldiyini əsas götürüb mənzilə köçürülməyim haqda iddia qaldırdım. Lakin Sabunçu Rayon Məhkəməsinin hakimi Elşən Kazımov 23 iyun 2015-ci il tarixli qətnaməsi ilə iddiamı təmin etmədi. Həmin qərardan apelyasiya şikayəti versəm də Bakı Apelyasiya Məhkəməsinin hakimi İsmayıl Vəliyev də 14 oktyabr 2015-ci il tarixli qərarı ilə həmin hökmün qüvvədə qalması haqda qərar çıxarıb. Hakimlər yazırlar ki, mən və övladım icarədarın qohumu olmadığımızdan həmin mənzildə yaşayış hüququmuz tanınmır. Deyək ki, mən yadam. Bəs həmin mənzildə anadan olmuş, bir yaşına kimi həmin mənzildə böyümüş və həmin ailənin soyadını daşısan uşağın necə, həmin mənzildə yaşayış hüququ yoxdur?"

Müraciət müəllifi məhkəmələrdə qarşılaşdığı hallar haqda da yazır: "Azərbaycan məhkəməsi bir çox məhkəmə məmurlarının cibininin doldurulmasına xidmət edir. Hakimlər isə necə istəsə, elə qərar çıxara bilirlər. Hətta deyilənlərə görə, Azərbaycan məhkəməsində belə bir prinsip var: "Geriyə yol yoxdur". Yəni aşağı məhkəmə instansiyası nə qərar çıxarırsa, yuxarı məhkəmə instansiyası da o qərarı təsdiqləyir. Bəzi hallarda isə onun dəyişdiriməsinə ya "güclü" bir məmur işə qarışması ilə və ya "yaxşı xəcalətdən çıxmaq" vasitəsilə nail olmaq olar.

Qarşı tərəf, yəni keçmiş həyat yoldaşım ismarıc göndərib ki, "gördünmü mən istəyən kimi oldu, vəkil vasitəsilə 1500 manat Kazımova, 500 manat isə İsmayıl Vəliyevə ötürdüm, istədiyim oldu". Hər 2 hakim tərəfindən çıxarılan qərarlar əsassızdır. Hakim Elşən Kazımovun çıxarmış olduğu qətnamədə nümayəndəmin qanuna istinadən uşağın hüquqlarının müdafiəsi üçün təqdim etdiyi faktlar əksini tapmayıb. Əks tərəfin çıxışı isə hətta məhkəmə prosesi zamanı səsləndirmədiyi, əsası olmayan faktlarla xeyli zənginləşdirilib. Daha sonra Bakı Apelyasiya Məhkəməsində hakim İsmayıl Vəliyevə etiraz verdik. Lakin bizim iştirakımız olmadan, etiraz nəzərə alınmadan qanunsuz və əsassız qərar çıxarıldı".

Müraciət müəllifi xahiş edir ki, hüquqları pozulmuş bir Azərbaycan vətəndaşı, ana kimi onun və övladının hüquqları bərpa olunsun: "Əgər hüquqlarımız təmin edilmirsə, məni və oğlumu xarici ölkələrdən birinə yola salın. Bu barədə müraciət etdiyim ölkələrin səfirlərindən də xahiş edirəm. Çünki mənin doğulub böyüdüyüm ölkə özümün və övladımın hüquqlarının bərpası istiqamətində heç bir iş görə bilmirsə və vaxtı çatanda övladının vətənə borc adı altında əsgərliyə aparılmasını istəmirəm".

❑ **E.MƏMMƏDƏLİYEV**

# "MTRŞ qərar qəbul etməzdən əvvəl düşünməli, ANS isə…"

**Media eksperti Qulu Məhərrəmli Milli Televiziya və Radio Şurasının (MTRŞ) ANS-də yayımlanan "Hesabat" verilişinin efirə getməsini dayandırması və daha sonra qərarını dəyişməsinə münasibət bildirib. Musavat.com saytına açıqlama verən ekspert qeyd edib ki, "Hesabat" verilişinin yayımının davam etməsi müsbət haldır.**

Q.Məhərrəmli bildirib: "Kimin haqlı olduğunu araşdırmağa başlasaq, çox dərinliyə gedib çıxacağıq. Bir televiziya adamı olaraq ANS-in populyar verilişlərindən birinin yayımının bərpa olunması mənim üçün önəmlidir. "Hesabat"ın yayımını davam etdirməsi müsbət hadisədir. Gələcəkdə həm televiziya diqqətli olmalıdır, həm də MTRŞ qərar qəbul etməzdən əvvəl düşünməlidir. Önəmli olan MTRŞ ilə ANS arasındakı münasibətlərin normal məcraya yönəlməsidir. Onların işgüzar əməkdaşlığı olmalıdır. Aralarındakı gərginliyin artması yaxşı heç nə vəd etmir. Bizim üçün önəmli nəticə "Hesabat"ın yayımlanmasıdır. Hazırda ictimai-siyasi verilişlərdə qeyri-peşəkarlıq və məhdudiyyət var. Bu verilişin bağlanması mənzərəni tündləşdirərdi. Verilişin davam etməsi yaxşı hadisədir"

Qeyd edək ki, ötən gün keçirilən mətbuat konfransında MTRŞ-nin sədri Nuşirəvan Məhərrəmli bildirib ki, telekanal rəhbərliyinin səmimi etirafını nəzərə alaraq, "Hesabat" verilişinin yayımının bərpa olunması haqda qərar qəbul ediblər.

MTRŞ-nin qərarı ilə bağlı saytımıza açıqlama verən ANS Şirkətlər Qrupunun prezidentinin media məsələləri üzrə müşaviri Mais Məmmədov bildirib ki, qərar dəyişikliyinə Nuşirəvan Məhərrəmli aydınlıq gətirməlidir: "Nuşirəvan Məhərrəmliyə zəng edib soruşun ki, niyə verilişin yayımının dayandırılması barədə verdiyi əmri geri çəkdi? Mən bu haqda nə deyə bilərəm? Şükür Allaha ki, bizdə demokratiya var. Veriliş bağlandığı kimi açıldı. Biz nə etmişik? Xalq düşməniyik, ya partlayış törədirik? Jurnalistik və yazırıq. Mən bilən o quruma rəhbərlik edən adam jurnalistikadan uzaqdır. Mənim fikrim belədir".



**Qulu Məhərrəmli:** "Bizim üçün önəmli nəticə "Hesabat"ın yayımlanmasıdır…"

❑ **Könül İBRAHİM**

YENİ MÜSAVAT
N 17 (6338) 25 yanvar 2016



# İslahat gedirsə, qiymət artımı niyə dayanmır?

**İqtisadçı ekspert:** "İslahatların qiymətlərə təsir etməsi üçün müəyyən zamana ehtiyac var..."

**Devalvasiyadan sonra iqtisadiyyatın bir çox sahələrində sürətli qiymət artımını əngəlləmək üçün əl atılan tədbirlərdən biri də gömrük sisteminin liberallaşması və bu sahədə inhisarçılığın aradan qaldırılması idi. Hökumətin verdiyi qeyri-rəsmi tapşırıqlardan sonra gömrükdə brokerlər ləğv edildi və monopoliya müəyyən qədər aradan qaldırıldı.**

Lakin bu islahatlardan sonra bazarlarda gözlənilən ucuzlaşma baş vermədi. Əksinə, bahalaşma tendensiyası davam edir. Bəs, görəsən səbəb nədir? İqtisadçı ekspert Rəşad Həsənova görə, bu, uzunmüddətli bir prosesdir və islahatların qiymətlərə təsir etməsi üçün müəyyən zamana ehtiyac var: "Bu gün də gömrükdə inhisarçılığın aradan qaldırılması ilə bağlı ziddiyyətli fikirlər var. Təbii ki, hökumətin bu istiqamətdə rəsmi açıqlamalarının olacağını gözləmək düzgün deyil. Çünki hökumət rəsmi səviyyədə etiraf etməz ki, biz gömrükdə monopoliya yaratmışdıq və bu monopoliyanı aradan qaldırırıq. Bu mənada ortada çox ziddiyyətli məlumatlar gəzir. Bəzi hallarda inhisarçı maraqları hələ də qorunmaqdadır. Bəzi iş adamları deyir ki, əgər inhisarçının razılığı olmadan hansısa malı ölkəyə gətirirlərsə, yüksək vergilərlə üzləşirik. Bəzi hallarda isə malların ölkəyə daxil olması ilə bağlı süni maneələr yaradılır".

Ekspertin sözlərinə görə, gömrük islahatları qiymətlərin ucuzlaşmasına gətirib çıxartmasa da, bahalaşma prosesini müəyyən qədər yumşalda bilib: "Ümumilikdə proses başlayıb. Brokerlərin ləğvi də bu prosesin tərkib hissəsidir. Təbii ki, uzunmüddətli dövrdə normal qaydalarla fəaliyyət göstərməyən gömrük sistemi bugünkü şəraitə uyğunlaşdırılmayıb. Bəzi hallarda isə müəyyən məhsulların ölkəyə idxalı ilə bağlı həddindən artıq kiçik faizlərlə gömrük rüsumları mövcuddur. Bu isə daxili istehsalın müdafiəsinə müəyyən əngəllər yaradır. Bəzi hallarda isə ölkə üçün çox əhəmiyyətli olan, yerli istehsalda mühüm yer tutan məhsulların istehsalı ilə bağlı xammalların ölkəyə gətirilməsində çox böyük rəqəmlərlə ifadə olunan rüsumlar var. Sonrakı dövrdə hökumətin atacağı addımlar məhz bu istiqamətdə olmalıdır".

"Prosesin yumşaldılması və vergilərin tənzimlənməsi istiqamətində addımlar atmalıdır" deyən R. Həsənov hazırki situasiyada rəsmi rüsumların yenilənməsinə ehtiyac var: "Əvvəlki dövrdə bunun əhəmiyyəti yox idi. Bildiyiniz kimi, əvvəlki dövr fərqli idi və orada satılan məhsullara konkret məbləğ müəyyən edilmişdi. O məbləğin bir hissəsi hansısa formada mənimsənilir, kiçik bir hissəsi isə dövlət büdcəsinə köçürülürdü. Hazırda bu şərtlər dəyişərsə, monopoliya aradan qaldırılarsa, təbii ki, növbəti dövrlərdə biz qiymətlərin ucuzlaşmasını hiss edəcəyik. Ancaq bu prosesin davamlı olacağına sahibkarı inandırmaq lazımdır".

İqtisadçının fikrincə, gömrük islahatlarından sonra qiymətlərin devalvasiyadan öncəki həddə qədər ucuzlaşmasını gözləmək də sadəlövhlük olardı: "İnhisarçılıq məhsulların qiymətinin təxminən 30 faizini formalaşdırırdı. Lakin bu gün hətta bu inhisarçılıq tam aradan götürülsə belə, manat iki dəfə ucuzlaşıb və xaricdən idxal olunan məhsulların xarici valyutada gəldiyini nəzərə alsaq, həmin məhsulların bahalaşması qaçılmazdır.

Əgər bu istiqamətdə addımlar atılmasaydı, gömrükdə müəyyən yumşalmalar həyata keçirilməsəydi, biz bu gün bundan da sürətli bahalaşma ilə üz-üzə qalacaqdıq. Burada dövlətin administrativ təzyiqləri də müəyyən rol oynayır. Amma buna baxmayaraq, biz çox ciddi rəqəmlərlə ifadə olunan inflyasiya ilə üz-üzə qalacaqdıq və qiymətlər bahalaşacaqdı. Bu gün bir çox məhsulların qiymətindəki artım milli valyutanın dəyər itirməsi tempi ilə tarazlığını qoruyub saxlayırsa, bu gömrükdəki yumşalmaların nəticəsidir".

Rəşad Həsənov aparılan islahatların bir müddət sonra effekt verəcəyinə ümid etdiyini bildirdi: "Digər tərəfdən isə proses hələ yeni başlayır Biznesi buna inandırmaq lazımdır. Bu sektor 2015-ci ilin sonu və 2016-cı ilin əvvəlində baş verənlərin şokunu adlatdıqdan sonra artıq müəyyən stabilləşmə dövrü başlayacaq və biznes idxalla bağlı sahələrdə öz aktivliyini nümayiş etdirəcək. Orta sahibkarlığın bu sahəyə qoşulması nəticəsində rəqabət mühitinin dərinləşməsi ilə biz qiymətlərin müəyyən qədər yumşalmasını hiss edəcəyik. Lakin devalvasiyadan sonra artıq situasiya dəyişib. Biz qiymətlərin ucuzlaşmasını devalvasiyadan əvvəlki səviyyəyə və ya ondan da aşağı həddə düşəcəyini gözləyə bilmərik. Çünki milli valyuta nə qədər dəyər itiribsə, idxalda da bir o qədər bahalaşma qaçılmazdır".

❑ Nərgiz LİFTİYEVA

# Müxalifət böhranla bağlı toplandı

## Siyasi düşərgə hakimiyyətə təkliflərlə yanaşı, xəbərdarlıq da elədi...

**Yanvarın 24-də ölkənin aparıcı müxalifət partiyaları bir araya gələrək ölkədə baş verən böhranlı durumla bağlı toplantı keçirib. Musavat.com xəbər verir ki, KXCP, AXP, ADP, Ümid Partiyalarının rəhbərləri, "Ağ blok", Bakı Kəndlər Birliyinin təmsilçiləri də daxil olmaqla, tədbirdə iki yüzdən artıq şəxs iştirak edib. Tədbir dövlət himni ilə başlanıb.**

KXCP sədri Mirmahmud Mirəlioğlu çıxışında bildirib ki, uzun müddətdir müxalifət bu cür, bu şəkildə bir araya gəlmirdi: "Buna görə iqtidara təşəkkür düşür".

Ümid sədri İqbal Ağazadə isə qeyd edib ki, bu tipli tədbirlərin geniş tərkibdə və müntəzəm keçirilməsi vacibdir: "Hesab edirəm ki, bu insanlar, buradakı ictimai-siyasi düşərgənin təmsilçiləri bu cür tədbirləri davam etdirməyin yollarını aramalıdırlar. Bundan sonra da bu tipli tədbirlərin keçirilməsi, xalqın problemlərinin qaldırılması istiqamətində işlər aparılmalıdır. Xalqın bir arada olmasının yollarını aramalıyıq".

ADP sədri Sərdar Cəlaloğlu isə qeyd edib ki, böhranı yaradan iqtidar xalqı həmin böhrandan çıxara bilməz: "Bu, torpaqların itirilməsinə səbəb olacaq və Azərbaycan xalqının bütünlüyünü təhlükə altına alan bir prosesdir. Bu böhranın ağırlığını Azərbaycan xalqı qaldıra bilməyəcək. Azərbaycan faktiki olaraq total böhrandadır. Ölkədə köklü radikal islahatlar aparılmasa, ölkə batacaq. Təcili, növbədənkənar parlament seçkiləri keçirilməlidir. Xalqın iradəsini ifadə edən, demokratik seçki olmalıdır. İkincisi, Azərbaycanda mütləq koalision hökumət yaradılmalıdır. Qanunvericilik sisteminin və idarəetmə prinsipinin dəyişdirilməsi vacibdir. Bu böhranı yaradan bu iqtidardır. Bu iqtidar dəyişilməyənədək böhrandan çıxa bilməyəcəyik. Azərbaycanı satmaq prosesi başlayıb. Bu gün Azərbaycan təhlükədədir vəziyyət, Azərbaycanın parçalanma təhlükəsi var".

ADR Hərəkatının təmsilçisi Vurğun Əyyub isə qeyd edib ki, son vaxtlar böhrandan çıxmaq üçün hakimiyyətə çox sayda təkliflər verilsə də, heç birinə cavab gəlməyib: "Azərbaycan hakimiyyətinin heç bir proqramı yoxdur, xaotik addımlar atırlar".

"Ağ blok"un təsisçilərindən Tural Abbaslı isə bildirib ki, cılız ambisiyalara görə bir araya gəlməyən müxalifyönlü insanlar da səhnədən getməlidir: "Bu tədbirlərin də davamlı olmasına çalışmaq lazımdır. Konkret tələblərdən biri parlamentlə bağlı idi, dəstəkləyirəm. Parlament təcili buraxılmalıdır. Dövlət başçısı nəhayət, müxalifətlə bir masa arxasında oturmalıdır".









VİP sədri Əli Əliyev isə deyib ki, hakimiyyət öz yerində deyil: "Manatla bağlı hakimiyyət də devalvasiyaya uğrayıb. Hakimiyyət özünü itirib. Qarşımızda duran vəzifələrdən biri hakimiyyətin qarşısına güc çıxarmaq olmalıdır. Biz bu gücü formalaşdırmalıyıq. Biz göstərməliyik ki, xalq bu hakimiyyətin rəhbərliyi altında yaşamaq istəmir. Azərbaycanın iqtisadi cəhətdən Rusiyaya satılması prosesinə hazırlıq gedir. Biz buna razı olmamalıyıq. Azərbaycan dövlətçiliyi təhlükədədir".

Media kapitanı Əvəz Zeynallı isə deyib ki, gənclər proseslərə rəhbərlik etməlidir: "Prosesi Azərbaycan gənci o istiqamətdə aparmalıdır ki, prosesi bizim əlimizdən ala bilməsinlər".

Ümid Partiyasının təmsilçisi Tamilla Qulami qeyd edib ki, budəfəki tədbirin təşəbbüskarının müxalifət liderlərinin olmaması təəssüfedicidir: "Gənclər təşəbbüs göstərdilər, müxalifətin bir araya gəlməsinə səbəb oldular. Antiböhran tədbirləri ilə bağlı təkliflər verilməlidir".

KXCP sədri Mirmahmud Mirəlioğlu isə qeyd edib ki, müxalifət bu gün etməli olduğuna başladı və bir araya gəldi: "Gənclər, sizdən öncəki nəsil, indi qocalanlar, ölkənin məsuliyyətini çəkənlər Azərbaycan dövlətinin müstəqilliyini bərpa ediblər. Bu müstəqilliyi bərpa edən insanlar yenidən bir yerdə olmağa məcburdurlar, məhkumdurlar və məcburdurlar. Hər kəs öz işini görməlidir. Bu iqtidar heç nəyi görmür. Hər kəs boynunun borcunu yerinə yetirməlidir. Bu nəsil də məsuliyyət daşıyır. Sabaha doğru addımlarımızı müəyyənləşdirməliyik. Bu hakimiyyət mütləq getməlidir və onu biz yola salmalıyıq".

AXP sədri Pənah Hüseyn isə bildirib ki, artıq xalq hərəkatının başlanması labüddür və bu olacaq: "Bugünkü tədbir də buna öz töhfəsini verəcək".

Tədbir dövlət himni ilə də yekunlaşıb. Tədbirdən sonra siyasi liderlər toplaşaraq işçi qrupun yaradılması barədə ümumi razılığa gəldilər. İşçi qrupun növbəti toplantısı gələn həftəyə nəzərdə tutulub.

❑ Röya RƏFİYEVA
Fotolar müəllifindir





YENİ MÜSAVAT
N 17 (6338) 25 yanvar 2016

# İcra başçısı özünə zirehli maşın alıb - 500 min dollara!

## Elmar Vəliyevin LEXUS-unun xüsusi sifarişlə yığıldığı iddia olunur; hökumət qənaət rejiminə keçdiyi vaxt icra başçısı nədən israfçılıq edir?

**Neftin qiymətinin kəskin düşməsi ilə manatın iki dəfə devalvasiyası Azərbaycanda faktiki iqtisadi böhran yaradıb. Ağır iqtisadi şərtlər xüsusilə əyalətlərdə etiraz aksiyaları ilə müşahidə olundu ki, bu səbəbdən də hökumət bir sıra addımlar atdı - unun qiyməti endirildi, məvacib, təqaüd və sosial müavinətlərdə 10 faizlik artıma qərar verildi.**

Neftin qiymətinin dövlət büdcəsində 80 dollardan 25 dollara endirilməsi, bəzi idarə və komitələrin ləğvinə başlanılması iqtidarın qənaət rejiminə keçdiyini göstərir. Prezident son müşavirələrdə dövlət büdcəsindən ayrılmış vəsaitin israfçılıqla xərclənməsinə toxunaraq, xüsusilə rayonlarda bu işə ciddi nəzarət ediləcəyini deyib. Prezident tapşırıb ki, icra başçıları indi hər 3 aydan bir görülən işlər və xərclərlə bağlı hökumətə hesabat verməlidir. Həmçinin dotasiyaya göz dikmiş rayon icra başçılarının da vəziyyəti nəzərə almalarını, əvvəlki tək arxayın olmamalarını deyib.

Statistika da göstərdi ki, sosial təbəqələrlə aksiya keçirilən rayonlara illərlə milyonlarla pul ayrılsa da, nə iş yerləri açılıb, nə də xalqın güzəranının yaxşılaşması üçün lazımi addımlar atılıb. Xalq kasıbladıqca isə icra başçıları daha da varlanıb, özlərinə dəyəri milyonlarla ölçülən mal-mülk alıblar. Aksiyalardan yayılmış videomateriallarda da icra başçılarının harınlaması haqda deyilənlər buna sübutdur.

Belə bir durumda isə Gəncə əhalisini hiddətləndirən bir fakt ortaya çıxıb. Məlum olub ki, Gəncənin icra başçısı Elmar Vəliyev özünə zirehli maşın alıb. Xəbəri verən mənbə deyib ki, icra başçısının Yaponiyada xüsusi sifarişlə yığdırdığı deyilən JEEP-LEXUS 500 min dollar dəyərindədir. 20 AA 001 dövlət seriyalı avtomobili icra başçısının hansı vəsaitlə aldığı məlum deyil. Əvvəl Yevlaxda, sonra isə Gəncədə icra başçısı işləyən Elmar Vəliyev üçün 500 min dollar elə də böyük xərc deyil və bunu şəxsi büdcəsindən də ödəyə bilər. Yeri gəlmişkən, ilk devalvasiyadan - 21 fevraldan bir neçə gün öncə icra başçısının banklardan birindən 2 milyon dollar aldığı barədə xəbərlər yayılmışdı.

Əlbəttə, hər kəs, o cümlədən icra başçıları da öz vəsaitləri ilə istədikləri avtomobili ala bilərlər. Amma indiki həssas məqamda icra başçısının zirehli maşına minməsi diqqət çəkir. Əvvəla, prezident tapşırıb ki, icra başçıları özlərini xalqdan üstün tutmasınlar, onların arasında olsunlar, dərd-sərlərinin dinləsinlər. İkincisi, hətta şəxsi vəsaitlə belə prezidentin rayondakı nümayəndəsinin krizis dövründə çox dəbdəbəli avtomobilə minməsi istər-istəməz diqqət çəkir, əhalidə qıcıq doğurur. Neft böhranının vurduğu Rusiyada artıq bir müddətdir ki, yerli qubernatorlar nəinki dəbdəbəli istirahət edə, heç bahalı xidməti maşına belə minə bilmirlər. Azərbaycanda isə, görünür hələ ki, hər



şey əksinədir: icra başçıları xalqın çətin durumunda belə xarici ölkələrdə istirahətlərindən qalmırlar, dəbdəbəli həyatlarını davam etdirirlər...

E.Vəliyev dəbdəbəli həyata meyilli məmurlardandır. Təxminən 1 il öncə mətbuatda onun oğlunun Bakıda və Gəncədə kartejlə gəzdiyinə dair məlumatlar yayılmışdı. Xəbərdə bildirilirdi ki, Elmir Vəliyev gücləndirilmiş mühafizə altında və kortejdə gəzir. Kortejdəki maşınların bir neçə yüz min dollar olduğu iddia olunurdu. Başçı oğlunun LEXUS, "Galendevagen", BMW və s. bu kimi bahalı markalardan olanda maşınlarda gəzdiyi yazılırdı.

❑ **Mehdi QİYASƏDDİN**

# İntihar etdiyi deyilən biznesmenlə bağlı yeni məlumatlar

## Fəxrəddin Əliyev səfirin dayısı oğlu deyil; mərhumun yaxınları onun intihar etməsinə inanmır...

**Yanvarın 22-də İstanbulda intihar etdiyi deyilən azərbaycanlı biznesmen Fəxrəddin Əliyevin ölümü ölkə gündəminin əsas mövzularından biridir.**

İslam Konfransı Təşkilatının Gənclik Forumunun təmsilçisi və kadr əməkdaşı olan F.Əliyev silahı ilə özünü vurub. Onun ölümü ilə bağlı hər keçən gün yeni-yeni versiyalar meydana çıxır. Diplomatın hadisə baş verən gün saat 15:00 radələrində sürücüsü ilə birlikdə İstanbulun Şəfaköy səmtindəki atıcılıq poliqonuna getdiyi, silahı ilə hədəfə 90 dəfə atəş açdığı, daha sonra qalan tək patronu başına dayadığı və atəş açdığı deyilir. O, hadisə yerindəcə keçinib. Aparılan araşdırmalardan sonra onun intiharından başqa hadisə ilə bağlı heç bir dəlilə hələ də rast gəlinməyib.

Azərbaycanın Xarici İşlər Nazirliyi F.Əliyevin xarici işlər sistemində çalışması barədə yayılan məlumatları təkzib edib. Bu barədə musavat.com-a nazirliyin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev açıqlama verib: "Azərbaycanın İstanbuldakı Baş Konsulluğunda müavin vəzifəsində belə bir adam işləməyib". H.Hacıyev isə bu şəxsin XİN-ə aidiyyatının olmadığını təkrarlayaraq əlavə edib ki, onun təmsil olunduğu təşkilat ayrı bir beynəlxalq təşkilatdır: "Biz həmin təşkilatın adından danışa bilmərik. Beynəlxalq təşkilatın katibliyi ilə əlaqə saxlayıb onların mövqeyini öyrənə bilərsiniz. Amma əminliklə bildirirəm ki, xarici işlər sistemində belə bir adam çalışmayıb".




2006-2010-cu illərdə Azərbaycanın İstanbuldakı sabiq baş konsulu vəzifəsində çalışmış Səyyad Aran da musavat.com əməkdaşı ilə söhbətində bildirib ki, onun dövründə konsullluqda belə bir adam işləməyib. Sabiq baş konsul "ilk dəfədir belə bir adam haqqında eşidirəm, odur ki, heç bir məlumatım yoxdur", - deyə əlavə edib.

Mərhumla bağlı müəmmalar təkcə bununla bitmir. Onun qohumları intihar xəbərinə inanmırlar. Bu barədə "Yeni Müsavat"a F.Əliyevin adının çəkilməsini istəməyən qohumu məlumat verib: "O, İstanbulda yaşayırdı və uzun illər idi ki, bizneslə məşğul olurdu. Bu hadisənin intihar olduğuna inanmırıq. Onun özünə qəsd edəcək heç bir durumu yox idi. Biz bu məsələnin ciddi araşdırılmasını istəyirik".

F.Əliyevin ölümündən sonra onun barəsində yayılan xəbərlərdən biri də, Azərbaycanın sabiq baş prokuroru, Azərbaycan Respublikasının Serbiya Respublikasında, Monteneqroda və Bosniya və Herseqovinada fövqəladə və səlahiyyətli səfiri Eldar Həsənovun dayısı oğlu, eyni zamanda, təhlükəsizlik məsələləri üzrə ekspert İlham İsmayılla bacanaq olmasıdır. Məlumatı dəqiqləşdirmək üçün səfirlə əlaqə saxlamağa çalışsaq da, mümkün olmadı.

İlham İsmayıl mərhumla bacanaq olması xəbərini təsdiqlədi: "Hazırda yas yerindəyəm. Yayılan xəbərlər doğrudur. O, mənimlə bacanaqdır. Amma Xarici İşlər Nazirliyində işləməsi barədəki xəbər yanlışdır. O, heç vaxt orada çalışmayıb. Eldar Həsənovun dayısı oğlu olması xəbəri də doğru deyil. İntihar etməsi versiyası hələ təsdiqini tapmayıb. Ehtiyatsızlıq ehtimalı da var. Yəqin ki, yaxın günlərdə tam aydın olacaq. Bu istiqamətdə Türkiyədə hazırda işlər gedir. Hadisənin ehtiyatsızlıq, yaxud qəsd olduğu hələ ki dəqiqləşməyib. Fəxrəddin müəllim bizneslə məşğul olurdu".

❑ **Cavanşir ABBASLI**

# Özünü asan MTN polkovniki təcridxanada Pərviz Həşimliyə nə deyib?

## Jurnalistin vəkili Ali Məhkəməyə müraciət hazırlayır; həbsdəki müsavatçı qardaşların ailələri təqib olunur; **Raqif Kərimli:** "Mülki geyimli şəxslər yenidən peyda olublar..."



**Hazırda həbsdə olan jurnalist Pərviz Həşimlinin evindən tapılan silahlarla bağlı Ali Məhkəməyə müraciət ediləcək. Buna səbəb silahların digər məhbus Nicat Quliyevin işində də istifadə edilməsi ilə bağlı olan iddialardır. Bu barədə "Yeni Müsavat"a jurnalistin vəkili Bəhruz Bayramov məlumat verib.**

Vəkil açıqlamasında Həşimlinin həbsində təcridxanada intihar edən MTN polkovniki İlqar Əliyev və Elçin Əliyevin əlinin olması ilə bağlı növbəti şok faktlar açıqlayıb: "Pərviz Həşimlinin işində yeni faktlar ortaya çıxdı. Belə ki, Təvəkkül Qurbanovun onun üçün gətirdiyi, üzərindən çıxan və evindən tapılan silahlardan digər əməliyyatda da istifadə olunub. Digər siyasi məhbus Nicat Quliyevin avtomobilindən guya bu silahlar çıxıb. Cüzi fərqləri nəzərə almasaq, silahların nömrələri eynidir. Bir-iki rəqəm fərqi var. Buna görə də Ali Məhkəmənin Plenumuna müraciət edəcəyik. Sənədlər hazırdır, bu günlərdə təqdim olunacaq. Nicat Quliyevlə bağlı əməliyyatın necə hazırlandığından xəbərim yoxdur. Amma Pərviz Həşimliyə qarşı əməliyyatın hazırlanmasından xəbərimiz var. Elşən adlı şəxs əməliyyatda fəal idi. Soyadını dəqiq bilmirəm. Onu Pərviz həbs ediləndən bir il sonra çıxardılar. Çünki istədiklərini həyata keçirə bilməmişdilər. Pərvizin üzünə duran Təvəkkül Qurbanovun həyat yoldaşı Elşənin şadlıq saraylarında mühasib işləyirdi. Aldığımız məlumata görə, hər gün səhər həmin qadını xüsusi maşın işə aparırmış. Axşam da eyni qaydada qaytarırmış. Pərvizin həbsinə, onun evinə edilən basqına Elçin Quliyev və özünü asan İlqar Əliyev rəhbərlik etmişdi. Pərvizi gecə səhərə qədər onların yanında saxlamışdılar. Ondan başqa şəxslərin əleyhinə olan sənədlərə qol çəkməsi tələb olunmuşdu. Külli miqdarda pul təklifi də olmuşdu. Hətta 2014-cü il dekabrın 24-də Apelyasiya Məhkəməsinə üç gün qalmış İlqar Əliyev təcridxanaya gələrək, bir daha Pərvizə həmin təklifləri etmişdi. Demişdir ki, əgər qol çəksən, gələcəkdə deputat da ola bilərsən. Açığı, Pərvizin azadlığa çıxacağına ümidim çox idi. Çünki MTN-dəki dəyişikliklərdən sonra cinayətdə iştirak edən həmin şəxslərin çoxu ya işdən çıxarıldılar, ya da həbs olundular. Amma gözləntilərim olmadı. İndi də müraciətimizi edəcəyik, gələcək göstərəcək".

***

Yanvarın 26-da Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyevin Ali Məhkəmədə prosesi olacaq. Hökmdən verilən şikayətə baxılacaq.

"Ayna-Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirova verilən hökmdən apelyasiya şikayəti verilib. Prosesin baxılma zamanı hələ müəyyənləşməyib. Bu barədə musavat.com-a məlumat verən jurnalistin vəkili Fuad Ağayev fevralın ilk ongünlüyündə məhkəmənin ilkin baxış iclasının olma ehtimalının olduğunu söylədi.

Həbsdəki müsavatçı gənc Fərəc Kərimlinin saxlanıldığı 13 saylı cəzaçəkmə müəssisəsinin problemləri bitib-tükənmir. İstilik sisteminin bərbad vəziyyətdə olduğu müəssisədə məhbuslar soyuqdan "donurlar". Bu barədə müsavatçı gəncin atası Raqif Kərimli məlumat verdi: "Fərəcin saxlanıldığı müəssisədə dözülməz şərait var. Soyuq onlara çox əziyyət verir. İstilik sistemi çox bərbaddır. Baxan da yoxdur. Ayın 30-da görüş günüdür. Yəqin ki, görüşdə Fərəclə bu barədə ətraflı danışacağıq".

R.Kərimli həbsdəki digər oğlu Sirac Kərimlinin saxlanıldığı 10 saylı cəzaçəkmə müəssisəsində şəraitin normal olmasına baxmayaraq, telefon danışıqlarına maneələr yaradıldığını qeyd etdi. Məhbus atası övladlarına görə hələ də təqib olunduqlarını da qeyd etdi: "Oğullarım həbs edildiyi vaxt yaşadığımız binanın qabağında onları izləyən mülki geyimli şəxslər yenidən peyda olub. Qonşular mənə xəbər verdilər. Son üç gündə tez-tez binanın qarşısında görünürlər. Həyat yoldaşım da onları görüb. 41-ci bölmədən də zəng vurub, oğullarımla bağlı məndən məlumat aldılar, iş yerimi soruşdular. Hələ də səbəbini bilmirik".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 17 (6338) 25 yanvar 2016



# Çimişən axçılar və irişən həmsədrlər

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Bunlar bizim heysiyyatımızla oynayır, açıq şəkildə deyirlər ki, "ermənilər Qarabağı alıb, üstündən su içib, siz də su için, sakitləşin, "keçmiş olsun" deyin". Yoxsa bunun başqa adı yoxdur. Artıq adı belə ikrah doğuran ATƏT-in Minsk qrupunun həmsədrlərinin son bəyanatını sakit oxumaq mümkün deyil.**

Həmin bu "üç müşketyor"un bəyanat yaydığını eşidəndə bir anlıq düşündüm ki, nəhayət, Ermənistanı adam, daha doğrusu, normal ölkə olmağa çağırıblar. Çünki elə həmin gün ağdamlı kəndlini güllələmişdilər - torpağını suvararkən. Ancaq oxudum ki, yox, "turist diplomatlar" nəinki əkin sulayan kəndlinin güllələnməsinə etiraz edib, hətta işğalçıya qahmar çıxıb, AŞPA-nı qınayıb.

26 yanvarda Strasburqda "Dağlıq Qarabağ və işğal edilmiş digər ərazilərdə zorakılığın artması" və "Sərhədyanı ərazilərin qəsdən sudan məhrum edilməsi" adlı qətnamə layihələri müzakirəyə çıxarılacaq". Üstəlik, Şahbaz Quliyev və Dilqəm Əsgərovun erməni girovluğunda olmasına da etiaz edilməsi gözlənilir. Öz yurduna gedən Dilqəmlə Şahbaz il yarımdır erməni girovluğundadır. Həmsədrlər bircə dəfə də onları yada salmayıb.

24 ildir başımızın altına yastıq qoyan həmsədrlər bu gün Ermənistanı açıq müdafiə edir. Nəhayət, onlara layiq olduğu cavab verilməlidir. XİN-in "qara siyahısı" var, Dağlıq Qarabağa qanunsuz səfər edən 508 nəfərin adı var orda. Özü də Qarabağa qanunsuz gedənlərin əksəriyyəti Minsk qrupunun həmsədr ölkələrinin (!) vətəndaşlarıdır.

Bu, onunla bağlıdır ki, həmin ölkələr öz vətəndaşlarına, şirkətlərinə "Ermənistanın işğal etdiyi ərazilərə getməyin" çağırışını etməyib, onları geri çağırmayıb. Ermənistan etiraf edir ki, Qarabağda rəsmən 24 şirkət çalışır, bura ildə 35 milyon dollar investisiya yatırır. Həmsədrlər bu faktlara susursa, onda ölkələri imkan yaratsın, həmin şirkətlər İŞİD-lə də ortaq layihələri həyata keçirsin. Terrorçunun erməni, ya İŞİD-çi olmasının nə fərqi var? İşğal olunmuş əraziyə investisiya ona görə qoyulmur ki, sabah o torpaqlar Azərbaycana qaytarılsın. Bizi sadəcə, yuxuya verirlər...

Məncə, XİN-in "qara siyahı"sı yenilənməlidir. Bundan sonra həmsədrlərin Bakıya gələn yolunu qapatmaq, Ermənistan yolu ilə Qarabağa gedən həmsədrlərin özünü "persona non qrata" elan etmək lazımdır. Yapon səyyahın Ağdamdan çəkdikləri ağrılı da olsa, həqiqətlərimizin dünyaya yayılması baxımından daha faydalıdır.

Əslində həmsədr ölkələr BMT-də Azərbaycanın ərazi bütövlüyünə bitərəf qalanda onların vasitəçilərindən imtina olunmalı idi. Əks təqdirdə bu gün başları Qarabağı baş terrorçusu Bako Saakyanın tut arağından məst olan diplomatlar AŞPA-nı təhdid etməzdilər.

Son günlər Azərbaycanda inhisarçılığa son qoyulması zərurətindən çox danışırıq. Ölkənin inkişafı, böhrandan çıxmağımız üçün əsas şərtdir. Ancaq deyəsən, unutmuşuq ki, Azərbaycanın işğaldakı 20 faiz ərazilərində də təkcə işğal yox, həm də inhisar hökm sürür. Həmsədrlər Qarabağ məsələsini inhisara alıblar, imkan vermirlər ki, bir beynəlxalq təşkilat ora yaxın düşsün, işğala etiraz etsin.

AŞPA-dakı sənədlərdən birini Böyük Britaniyanı təmsil edən deputat Robert Valter hazırlayıb. Bu sənədə görə erməni nazir Nalbandyan onu "qərəzli" adlandırmışdı. "Qərəz" sənəddə "Ermənistan qoşunlarının Dağlıq Qarabağ və digər işğal olunmuş ərazilərdən çıxarılması və həmin ərazilərdə Azərbaycanın tam hakimiyyətinin bərpa olunması" tələb olunmasıdır.

Nalbandyan da eyni sözü deyir, Popov da, Uorlik də, Andrie də. Onda bunun harası həmsədrlik oldu? Əgər işğala son qoyulmasını istəmirlərsə, ağdamlı qaçqının dediyi kimi, onların apardıqları danışıqlar təpələrinə dəysin!

Ermənilər yeni videoçarx hazırlayıblar, dünyanı Kəlbəcərə çağırıblar - İsti suda çimişən erməni axçilərini göstərərək. Təsəvvür edin, ermənilər Kəlbəcər dağlarını kanatla birləşdirir, Şuşanın Cıdır düzündə moda yarışması keçirilir, Zəngilanda, Qubadlıda qəsəbələr salır, Minsk qrupu isə "işğala son qoyulsun" yazılmış sənədə etiraz edir.

Məni qınamayın, Kəlbəcərin isti suyunda çimişən erməni axçilər son çağırışları ilə daha səmimi göründü, nəinki sülh danışıqlarında vasitəçilik edən həmsədrlər... Hətta bu çağırışı qəbul edib Kəlbəcərə də getmək olar... Birdəfəlik!

Həmsədrlər bizi ələ salmağa başlayıb, bəlkə onları yola salaq. İndi söz cənab Elmar Məmmədyarovundur.

# Siyasi məhbuslarla bağlı maraqlı proqnoz

## Elxan Şahinoğlu: "Məncə, növbə Xədicə İsmayıl, İlqar Məmmədov, Anar Məmmədli, Tofiq Yaqublu, İntiqam Əliyev və digər mübahisəli məhbuslarındır..."

**Ötən ilin sonlarında baş verən Nardaran hadisələrinə görə həbs edilən Nardaran sakinləri, həmçinin Nardaran ağsaqqalı Məşədi Natiq Kərimov Azərbaycan prezidentinin göstərişi ilə azad olundular. Onların ardınca hakimiyyətə qarşı sərt çıxışları ilə gündəmə gələn və bir qədər sonra həbs olunan Zərdab rayon Prokurorluğunun sabiq müstəntiqi Rüfət Səfərov da cəmi bir həftə sonra ev dustaqlığına buraxıldı.**

Rüfət Səfərovun valideynlərinin prezidentə ünvanladıqları minnətdarlıq məktubundan da belə anlaşıldı ki, onların övladlarının azadlığa qovuşması birbaşa dövlət başçısının göstərişi ilə mümkün olub. Bir həftənin içində yuxarıda qeyd etdiyimiz həbsdən azad edilmələr cəmiyyətdə belə bir ümid yaradıb ki, siyasi məhbuslar adlandırılan şəxslərin azadlığa buraxılması məsələsində hakimiyyətdə bir yumşalma yaranıb. Novruz bayramına qədər həmin məhbusların əksəriyyəti azadlığa buraxıla bilər.

Bu barədə danışan "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirdi ki, son vaxtlar həbs edilən bəzi şəxslərin azad edilməsi onu deməyə əsas verir ki, deməli, hakimiyyətdə yaranmış durumu ölçüb-biçir, qərarlara düzəliş edirlər. Ona görə də ehtimal etmək olar ki, azadlığa buraxılma növbəsi Xədicə İsmayıl, İlqar Məmmədov, Anar Məmmədli, Tofiq Yaqublu, İntiqam Əliyev və digər mübahisəli məhbuslarındır: "Çünki indi elə dövr deyil ki, hakimiyyət iqtisadi və sosial böhranla yanaşı siyasi enerjisini Qərbin təzyiqlərinin neytrallaşdırılmasına xərcləsin. Əksinə, rəsmi Bakının indiki vəziyyətdə həm ABŞ, həm də Avropa İttifaqı ilə münasibətlərini inkişaf etdirməsinə ehtiyac var. Ona görə ki, arzu etdikləri investorlar Rusiya və İranda deyil, Qərb ölkələrindədir. Mübahisəli məhbus mövzusunu gündəmdən qaldırmadan bu münasibətləri inkişaf etdirmək çətin olacaq. Əks halda, Hollivudun məşhur aktyoru Corc Kluninin xanımının Xədicə İsmayıla vəkillik etməsi beynəlxalq aləmin gələcək məhkəmə prosesinə diqqətini çəkməklə yanaşı, Azərbaycan hakimiyyətinə əlavə problemlər yaradacaq. Bu, hakimiyyətə lazımdırmı? Hər halda - xeyr. Bu baxımdan da xanım Kluni işə başlamadan, həmçinin prezident İlham Əliyev martın sonu-aprelin əvvəlində Vaşinqtonda keçiriləcək nüvə sammitinə getmədən öncə məsələni müsbət həll etmək hamının xeyrinə olar".




❑ E.SEYİDAĞA

# İsveçrədən GUAM mesajı

## İqtisadçı deputat Azərbaycanın Davos Forumunda iştirakını yüksək dəyərləndirir



Əli Məsimli

**"Davos Dünya İqtisadi Forumu iqtisadi xarakterli tədbirlərin zirvəsidir. Orada müzakirə olunan məsələlər dünya düzəninin ən aktual problemləri, riskləri və çağırışları ilə əlaqədar olur və dünya siyasətinin yönəldilməsində fikirləşməkdən ötrü zəngin material verir".**

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Əli Məsimli İsveçrənin Davos şəhərində keçirilən 46-cı İqtisadi Forumu və oradakı müzakirələri "Yeni Müsavat"a şərh edərkən bunları bildirdi. İqtisadçının sözlərinə görə, Azərbaycan prezidenti İlham Əliyevin Davosda Dünya İqtisadi Forumu çərçivəsində keçirilən tədbirlərlərdə fəal iştirakı hər cəhətdən Azərbaycanın xeyrinədir: "Həm prezidentin yetərincə yüksək intellektual yüklü çıxışları diqqəti geniş şəkildə cəlb edir, həm də bu çıxışlar ölkənin hansı imkan və potensiala malik olduğunu dünyanın biznes-iqtisadi elitasına çatdırmaq üçün çox yaxşı şans yaradır. Prezidentin "Yeni enerji tarazlığı" mövzusunda sessiyada çıxışı zamanı toxunduğu məsələlər təkcə Azərbaycan üçün deyil, neft hasil edən ölkələrin xeyli hissəsi üçün mühüm aktuallıq kəsb edir. Böhranın doğurduğu ağır nəticələrdən az itkilərlə çıxmaq, qeyri-neft sektoruna diqqətin artırılması və bu sahənin məhsullarının rəqabət qabiliyyətinin artırılması kimi məsələlər neft ölkələrinin əksəriyyəti üçün, xarici investorların Azərbaycana investisiya qoymasına təminatlı çağırış isə xüsusən hazırkı böhranlı dövrdə bizim üçün çox aktualdır".

Ə.Məsimli qeyd etdi ki, Azərbaycan prezidentinin Davos Forumunda iştirakı bir sıra dövlət və hökumət başçıları, nazirlər, şirkət rəhbərləri ilə görüşləri baxımından da əhəmiyyətlidir: "Prezident İlham Əliyevin Davosda Türkiyənin baş naziri Əhməd Davudoğlu ilə görüşü iki qardaş ölkənin dövlət və hökumət başçılarının tez-tez fikir mübadilələri etmələri baxımından önəmlidir. Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə yüksək səviyyədə inkişafı, yüksək səviyyədə mütəmadi görüşlərin əməkdaşlığımızın genişləndirilməsi baxımından əhəmiyyəti qeyd edilib. Beynəlxalq səviyyəli tədbirlərdə Azərbaycanın və Türkiyənin birgə iştirakının önəmi vurğulanıb. Azərbaycan prezidentinin Böyük Britaniyanın BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşü də önəmli xarakter daşıyır. Görüşdə "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarının işlənilməsində Azərbaycan ilə BP şirkəti arasında əməkdaşlıq, eləcə də Abşeron yarımadasının dayaz sulu hissəsində geoloji kəşfiyyat işlərinin aparılması sahəsində işlər barədə fikir mübadiləsi olub. Prezident İlham Əliyevlə Rusiyanın "LUKoyl" şirkətinin prezidenti Vahid Ələkbərovun görüşü zamanı Azərbaycanla "LUKoyl" şirkəti arasında əməkdaşlığın perspektivlərinə dair məsələlər müzakirə olunub. Prezidentin Davosda "Lazard Avropa" şirkətinin vitse-prezidenti Metyu Piqas ilə görüşü də "Cənub qaz dəhlizi" kontekstində Azərbaycan-Avropa əməkdaşlığının genişləndirilməsinin maliyyə tərəfləri baxımından əhəmiyyətə malikdir. Göründüyü kimi, Azərbaycan Prezidentinin Davos İqtisadi Forumunda fəal iştirakı Azərbaycan üçün sadalanan istiqamətlərdə xüsusən indiki şəraitdə çox zəruri olan dividendlər gətirir".

Ə.Məsimli Forumda qlobal təhlükəsizlik, "dördüncü sənaye inqilabı", dünya maliyyə sistemi, enerji daşıyıcılarının qiyməti və sair bu kimi aktual məsələlərin müzakirə olunmasına diqqət çəkdi: "Davos iqtisadi forum olsa da, bu həm də çox önəmli bir diplomatik təşəbbüsdür. Burda Ukraynada müharibəyə son qoyulması, Suriya sindromundan ziyan çəkənlərə humanitar yardım və sair yöndə çağırışlar böyük rezonans doğurdu. Davosda GUAM-ın iki əsas ölkəsinin dövlət başçılarının - Azərbaycan prezidenti İlham Əliyevin Ukrayna prezidenti Petro Poroşenko ilə görüşü də iki ölkə arasında iqtisadi sahədə, o cümlədən nəqliyyat, energetika, sərmayə qoyuluşu və digər istiqamətlərdə əməkdaşlığın perspektivlərinin müzakirə olunması da, nəinki yaxşı hal, həm də çox yaxşı bir mesajdır".

❑ Cavìd TURAN

# "Vicdansız addımdır, ancaq ağılsız addım deyil"

## Fazil Mustafa: "Dollarla götürülmüş kreditlərin ödənişi köhnə məzənnə ilə olmalıdır"

**"Baxış bucağı"**

**Azərbaycandakı böhranlı situasiyanın nə qədər davam edəcəyi hələ heç kəsə məlum deyil. Ötən həftə çağırılan parlamentin fövqəladə sessiyasında da bu sualın cavabı verilmədi, sadəcə, ümidlər ifadə olundu. Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa da iclasda kifayət qədər açıq danışdı, parlamentin də iştirakı ilə ölkədə fundamental köklü islahatların aparılmasını təklif etdi. Deputatın "5-10 adamın aldığı qərarla bu gün ölkənin düşdüyü vəziyyətin ağırlığını daşıyırıq. Bizi də söyürlər, bizə də deyirlər ki, xalqın problemləri ilə məşğul olmursunuz"- sözləri də geniş auditoriyada müzakirə olundu. Fazil Mustafanın "Yeni Müsavat"a geniş müsahibəsini təqdim edirik:**

***- Fazil bəy, Milli Məclisin fövqəladə iclasının keçirilməsi çox insanları ümidləndirmişdi. Bir sıra mühüm qərarlar qəbul edilsə də, bu daha çox perspektivə yönəlik addımlar sayıla bilər. Hesab olunur ki, bu gün Azərbaycan insanını düşündürən problemlər ki var, onlar həll edilməmiş qaldı. Siz necə, parlament müzakirələrindən razı qaldınızmı?***

- Razıyam ki, bu addımlara hələ köklü islahatlar demək olmaz. Parlamentdəki müzakirələrdən deyil, alınan qərarların bəzisindən qismən razı qaldım. İslahat aparılmasa da, heç olmasa əmanətlərin sığortalanması kimi bir vacib addım atıldı. Təbii ki, ölkədən valyutanın çıxarılması ilə bağlı məhdudiyyətin qoyulması lazım idi, ancaq burada iş adamları və investisiya qoyanlar üçün müəyyən istisnalar saxlamaq daha doğru olardı. Təsəvvür edin ki, 50 min dollardan yuxarı 20% ödəmək məcburiyyətində olan sərmayəçi hansısa layihəni gerçəkləşdirməyə maraqlı olmayacaq. Böhran dövrünün vergi yükü yetərincə azaldılmadır. İdxal-ixracda təminatlı yumşaqlıqlar gerçəkləşdirilmədi. Bütün bunlar da hakimiyyətin iqtisadi komandasının islahatlara hazır olmadığını və ya belə bir islahatlara maraqlı olmadığını üzə çıxardı. Əslində Milli Məclisdə iki-üç gün də olsa, hökumətlə deputatların yaranmış vəziyyətlə bağlı birlikdə ciddi müzakirəsi getməliydi, bütün təkliflər səsləndirilməliydi və nəticəyə yönəlik funksional işlər bölüşdürülməliydi.

***- Vətəndaşları ciddi şəkildə narahat edən əsas məsələlərdən biri dollarlı kreditlərdir. Mərkəzi Bankın rəhbərliyi bu barədə konkret söz deməsə də, indi məlum olur ki, bu məsələ vətəndaşın xeyrinə həll olunmayacaq. Siz burada hansı tərəfi haqlı sayırsınız - borclu vətəndaşı, ya bankı?***

- Anlaşılan budur ki, devalvasiya prosesini süni şəkildə uzadaraq, onu kəskin şəkildə 50% üzərinə qəfildən qaldıraraq, bir gün içində vətəndaşı yoxsullaşdıran şəbəkə öz marağı baxımından heç də ağılsız addım atmayıb. Yəni vicdansız addımdır, ancaq ağılsız addım deyil. Baxın, 21 fevral devalvasiyasından sonra əsasən bütün banklar krediti konstitusiyamıza zidd olaraq ABŞ dolları ilə verirdilər. Başqa alternativ isə bu krediti verməkdən imtina idi. Birdən-birə 50%-lik devalvasiya həyata keçirərək vətəndaşın hesabına əməlli-başlı dollar-manat fərqi üzərindən qazandılar. Halbuki 21 fevraldan sonra bunu tədricən etmək vətəndaşa bu qədər maddi, mənəvi və psixoloji zərər vurmazdı. Ona görə də burada haqlı bilavasitə vətəndaşdır və onun dollarla götürdüyü kreditin ödənilməsi köhnə məzənnə ilə olmalıdır.

***- Açıqlamalarınızdan belə aydın olur ki, siz də indiki komanda ilə ciddi islahatlara gedilməsini mümkün saymırsınız. Hazırkı situasiyada konkret nə təklif edirsiniz?***

**"Ölkənin bütün potensialı böhranın aradan qaldırılmasına yönəlməlidir"**

- Ortadakı konkret təklifləri Azərbaycanın müstəqil iqtisadçı ekspertləri ətraflı şəkildə təqdim edirlər. Bütün hallarda mən problemin həlli yollarını mütəxəssislərdən yaxşı bilmirəm. Biz ilkin olaraq atılacaq siyasi addımları söyləyə bilərik. İlkin olaraq iqtisadi islahatları aparmağa hazırlığı olan kadrların bu prosesə başçılıq etməsi vacibdir. Bu gün böhrandan çıxış yolunu axtarmaq səlahiyyəti olan insanların əksəriyyəti ölkənin iqtisadi vəziyyəti ilə bağlı prezidentə yanlış məlumatları verən, dövləti vətəndaşla üz-üzə qoyan məmurlardır. Problemi yaradanlara problemin həllini tapşıranda, daha böyük problemlər yaşayacağımıza kimsənin şübhəsi olmamalıdır. Bir sözlə, mövcud iqtisadi komanda yeniləşməlidir və ölkənin bütün potensialı böhranın aradan qaldırılmasına yönəlməlidir.

***- Qazaxıstan böhranlı situasiyada parlamenti qurban verdi. Siz Azərbaycan üçün hansı qurumun qurban verilməsini məqbul sayırsınız?***

- Başqa ölkələrin konkret addımları ilə müqayisənin doğru olduğunu düşünmürəm. Bəlkə bizdə parlamentdən deyil, hökumətdən başlamaq daha çox fayda verərdi. Parlament onsuz da hökumətdən gələn istənilən təklifi, hətta bəzən Konstitusiya ilə uzlaşmayan təklifi belə, səs çoxluğu ilə qəbul edir. Buyursun bu dəfə hökumət islahat təkliflərini təqdim etsin, parlament də birmənalı şəkildə dəstəkləsin. Baş qatmaq üçün, vaxt uzatmaq üçün hansısa yayındırıcı işlərlə məşğul olacaqlarsa, bu, böhranı həqiqətən də dərinləşdirəcək. Yaxşı-pis Milli Məclisin potensialından islahatlar üçün istifadə etmək lazımdır. Lazımsız dövlət qurumları birləşdirilməli və ya ləğv edilməli, daha effektiv idarəçilik sisteminə keçirilməlidir. Məncə, bu ərəfədə dövlətin yükünün azaldılması üçün bələdiyyə seçkiləri keçirilməli və icra hakimiyyətlərinin səlahiyyətləri azaldılaraq bələdiyyə institutu gücləndirilməlidir ki, lokal səviyyədə vətəndaşın problemləri ilə məşğul olan real qurum mövcud olsun. Ümumiyyətlə, icra hakimiyyət başçısının yeni obrazı barədə düşünülməlidir. Artıq maşın satan, asfalt çəkən, park salan, büdcəni talayan, şadlıq evi emblemi daşıyan icra başçısı obrazından intellektual hazırlıqlı başçı obrazına keçilməlidir. Diqqət edirsinizsə, rayonlardakı aksiyalarda kütlənin qarşısına çıxan icra başçıları şıkayətçilərə təqribən eyni təklifi verirdilər: "Gələrsən yanıma, danışarıq." Əslində bu cəmiyyətə bütöv şəkildə müraciət edə bilməyən rəsmi şəxslərin necə eyniyyət təşkil etdiyinin göstəricisidir. "Gəlmişəm yanınıza dinləyib, danışam" deyən icra başçısı obrazına ehtiyac günün tələbinə çevrilməkdədir.

***- Bəzi ekspertlər baş bankir Elman Rüstəmovun manat açıqlamasını ciddi hesab etmir. Güman olunur ki, qarşıdakı aylarda əhalinin ehtiyatları tam tükənə və arzuolunmaz vəziyyət yarana bilər. "Nə etməli" sualına sizin cavabınız varmı?***

- 21 fevral devalvasiyasından sonra Elman Rüstəmovun təkcə manatla deyil, bütün məsələlərlə bağlı açıqlamasına ciddi yanaşan yoxdur. Eləcə də hökumətin iqtisadi blokunda yer alan digər şəxslərə də münasibət təqribən eynidir. İlk öncə insanların səlahiyyətli şəxslərə, banklara və digər qurumlara inamını bərpa edəcək addımlar atılmalıdır. "Nə etməli" sualına, təbii ki, mənim cavabım formalaşıb, sadəcə "Kim etməli" sualına cavab tapa bilmədiyimdən bunu açıqlamağı yersiz hesab edirəm. Ölkə prezidentini və vətəndaşları iqtisadiyyatın vəziyyəti ilə bağlı yanlış məlumatlarla aldadanlar bir kənara çəkilərsə, obyektiv və dürüst məlumatlarla doğru siyasətin formalaşmasına vicdanla qol qoyanlar səlahiyyət sahibi olarlarsa, o zaman "Nə etməli" sualı da öz-özlüyündə çözülə bilər.



**"Bu gün böhrandan çıxış yolunu axtarmaq səlahiyyəti olan insanların əksəriyyəti ölkənin iqtisadi vəziyyəti ilə bağlı prezidentə yanlış məlumatlar verən, dövləti vətəndaşla üz-üzə qoyan məmurlardır"**

***- Yaz sessiyasında hökumət parlament qarşısında hesabata gələcək. Ancaq fakt budur ki, hətta hakimiyyətin kursunun müdafiəçiləri arasında da hökumətin fəaliyyətinə, yaxud qeyri-neft sektorunun inkişaf etdirilməməsinə görə sərt tənqidlər səsləndirir. Necə bilirsiniz, belə olan şəraitdə yenə də hökumət parlamentin etimadını qazanacaq, yoxsa yeni hökumətin formalaşdırılması istiqamətində addım atılacaq?***

- Bildiyiniz kimi, bizdə parlamentli respublika olmadığına görə hökumətin formalaşmasına parlamentin təsir mexanizmi demək olar, yoxdur və hətta varsa da, bu formal xarakter daşıyır. Hökumətin tərkibinin dəyişməsi səlahiyyəti ölkə prezidentinə aiddir və parlament çoxluğu tərəfindən bütün hallarda etimad göstəriləcək. Sadəcə, təmənnam budur ki, bu etimad məsələsini bir tərəfə buraxıb indiki ölkənin düşdüyü böhran vəziyyətindən xilas üçün hökumətlə Milli Məclis arasında açıq, səmimi və konstruktiv müzakirələrin aparılması vacibdir. Bir çox hallarda deputatların faydalı təklifləri diqqətə alınmayıb, heç olmasa indi böhrandan çıxış üçün faydalı ola biləcək fikir və mülahizələrimizə qulaq assınlar.

***- Fazil bəy, müxalifətin bölgələrdəki etirazlara qoşulmamasını necə dəyərləndirdiniz? Ümumiyyətlə, böhranlı situasiyada müxalifət partiyalarının seyrçi münasibəti tənqidə layiqdir, yoxsa təqdirə?***

- Müxalifət deyəndə siz nəyi nəzərdə tutursunuz? Sosial şəbəkələrdə hər gün xalqı küçələrə çıxmağa səsləyib, xalq küçələrə çıxandan sonra bizsiz küçələrə çıxmaq olmaz deyənlərimi? Azərbaycanda əslində bir siyasi fürsətçilər zümrəsi var, hansısa bir aksiyadan, zəlzələdən, sosial fəlakətdən, müharibədən ekstremal bir dönüş baş verəcəyinə ümid edərək illərdir "müxalifət" şineli altında baş girləyirlər. Ümumiyyətlə, kimliyindən asılı olmayaraq, hər bir siyasi qüvvə çalışmalıdır ki, ölkədə xaotik iğtişaşa çevrilə biləcək hansısa hadisə baş verməsin. Çevrəmizdə baş verənlərin çox sayda nümunəsi var, belə bir iğtişaşdan sonra ölkə nə mövcud hakimiyyətə, nə də özünü demokratik sayan qüvvələrə qalacaq. Hansı qüvvələrin bu müqəddəs dövlətimizi necə xarabaya çevirə biləcəyini yəqin ki, ağlı başında olan hər kəs proqnozlaşdıra bilər. Ona görə də hətta hakimiyyət inadkarlıq göstərsə belə, bütün müxalif siyasi qüvvələr mövcud iqtidarı dinc islahatlar yolu ilə problemləri çözməyə təşviq etməlidirlər. Özümüzü aldatmayaq, bu gün Azərbaycanda real demokratik islahatları gerçəkləşməyə imkanı çatan tək qüvvə prezident İlham Əliyevdir. Hətta komanda da demirəm, hazırda yalnız onun siyasi iradəsi müsbət mənada çox şeyləri dəyişə bilər. Ona görə də müxalifət bu məsuliyyətli dövrdə sağlam təkliflərini ortaya qoymalı, hakimiyyətlə siyasi dialoqun baş tutmasına ciddi cəhdlər etməlidir.

***- Son günlər bir sıra şəxslərin - bu sırada hətta dövlətə xəyanətdə ittiham olunan da var - barəsində həbs qətimkan tədbirinin dəyişdirilməsi ümidlər yaradıb. Necə bilirsiniz, heç olmasa sosial-iqtisadi problemlər fonunda hakimiyyət siyasi arenada humanist qərarlar seriyasını davam etdirəcəkmi ki, gərginliklər azalsın? Xüsusilə də söhbət beynəlxalq səviyyədə müzakirə mövzusu olan həbslərdən gedir...***

- Əlbəttə, ölkəmiz əleyhinə beynəlxalq arenada müəyyən sərt qərarların alınmasına rəvac verən bir sıra şəxslərin həbsdə qalmasının izahını vermək mənim üçün də çətindir. Tofiq Yaqublunun, İntiqam Əliyevin, İlqar Məmmədovun, Xədicə İsmayılovanın, Fuad Qəhrəmanlının hazırda dövlət üçün hansısa təhlükə yaratdığını düşünmürəm. Ümid edirəm ki, Novruz bayramında prezident tərəfindən atılacaq humanist addımla Avropa qurumlarının hər dəfə dilə gətirdiyi məhbus məsələsinə də birdəfəlik son qoyulacaq.

***- Fazil bəy, bu günlərdə Ayaz Mütəllibovla Etibar Məmmədov qarşılıqlı şəkildə kəskin ittihamlar səsləndirdilər. Bu davada kim haqlı görünürdü?***

- Kimin haqlı olduğunu Allah bilir. Açığı, bu ittihamlar daha çox dedi-qodu xarakteri daşıdığından siyasi şərh vermək doğru olmazdı. Ancaq mən ümid edirdim ki, illər sonra siyasətdə ən yüksək zirvədə olmuş Ayaz Mütəllibov yaşadığı və qazandığı təcrübəyə görə cəmiyyət həyatına, siyasi proseslərə daha məntiqli və faydalanılması mümkün olan münasibət bildirəcək. 25 il öncə olduğu kimi, bu dəfə də məyus olduğumu söyləyə bilərəm.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 17 (6338) 25 yanvar 2016

# "Mimino"dakı azərbaycanlı



Zamin HACI
zaminhaci@gmail.com

**Məşhur sovet filmi "Mimino" yaşlı nəslin yadında yaxşı qalmış olar. Ona görə yaşlı nəsil yazıram ki, ehtimal edirəm bizim telekanalizasiyalar ordakı erməni sürücü Xaçikyan obrazını oynayan Frunzik Mkrtıçyana görə filmi göstərməzlər. (Yerli kanalları 10 ildən artıqdır izləmirəm, o üzdən güman şəklində yazıram).**

Ancaq "Mimino" kimin oynamasından asılı olmayaraq çox yaxşı filmdir, rejissor Georgi Daneliyanın şah əsərlərindən biridir. Və bəlkə də çox adam bilmir ki, bu filmdə gürcü və erməni obrazları ilə yanaşı bir azərbaycanlı personaj da nəzərdə tutulubmuş. Daneliya bunu niyə çəkməyib - fikirləşməyə dəyər. İp ucları verə bilərəm: film 1978-ci ildə çəkilib, o zamanlar belə filmlər ciddi senzuradan keçirdi, ali partiya rəhbərliyi istənilən obrazı ixtisara sala bilirdi. Azərbaycan rəhbərliyi də komik filmdə azərbaycanlı obrazına razı olmayıb. Nəticədə biz keçmiş ittifaq ərazisində bizə hörmət qazandıracaq bir obrazı itirmişik. (Sözgəlişi, xəbəriniz olsun ki, bizim "Babək" filmində Amaliya Pənahovanın oynadığı yarıçılpaq səhnənin icazəsi də birbaşa Azərbaycan KP MK-dan, birinci şəxsdən alınıb).

"Mimino" filmi haqda bir tarixi faktı da yazım: filmin ilkin ssenarisində Daneliya şeir yazıb, truba çalan təyyarəçi ilə kəndli qızın sevgisindən bəhs edəcəkmiş. Hətta filmin istehsalı da başlayıbmış və tam təsadüfən Daneliya köhnə dostu... Rüstəm İbrahimbəyovla rastlaşıb. Söhbət filmdən düşüb, bu zaman İbrahimbəyov Daneliyaya elə onun özünün haçansa danışdığı əhvalatı - hər uçuşdan qayıdanda vertolyotu oğurlamasınlar deyə zəncirlə qıfıllayıb ağaca bağlayan pilotun əhvalatını xatırladıb. Beləcə, film dəyişikliyə uğrayıb.

Bunları niyə yazıram? Srağagün "Azadlıq Radiosu" Azərbaycan xidmətinin saytında çox məzəli bir süjet gördüm. Bu, Ermənistanda bir sakinin hüquq-mühafizə orqanlarına etirazının orijinal formasına aid idi. Demək, dövlət bu ermənini məhkəməyə verib, nəsə çəkişmə var, ancaq adam məhkəmənin ədalətinə inanmır, onu saxta adlandırır, çağırışa getmir. Bu zaman polislər evə gəlir, adam isə qapını açan kimi yerə uzanır. Polislər onun əl-ayağından tutub maşına uzadır, məhkəməyə aparırlar. Orda da bunu dörd polis əllərində götürüb məhkəmə salonuna daşıyır. Hakim gəlir, hamı ayağa qalxıb, müttəhim isə yerdə uzanıqlıdır! Canlı, videoda baxmasan bəlkə bunu lətifə saymaq mümkündür.

Bax, məni düşündürən də elə bütün prosesin əvvəldən-axıra videogörüntüyə alınması, ancaq Ermənistan hüquq-mühafizə orqanlarının buna mane olmaması idi! Azərbaycanda belə şey mümkündürmü? Qətiyyən. Bizim orqanlar bu sahədə də qorxaqdır, şəffaflıq, aşkarlıq düşmənidir. Yekə-yekə danışıb Ermənistanı söyməklə deyil, belə detallar göstərir ki, orda söz, ifadə azadlığı Azərbaycandakından irəlidədir. (Bu, beynəlxalq qurumların reytinq cədvəllərində də vaxtaşırı ortaya çıxır). Keçən il bizim jurnalistlər məhkəmə prosesinə aparılan adamı videoya çəkmək üçün divara dırmaşmağa məcbur olmuşdular, "Ədliyyə" Nazirliyi Penisentiar İdarəsinin işçiləri isə utanmazcasına ... onları daşa basmışdılar! Dünyanın heç yerində belə karikatur poqon daşıyıcıları olmur.

Ermənistandakına bənzər əhvalatın biri də Rusiyada olmuşdu. Orda hakim vəkilin salondan çıxarılması qərarı vermişdi - buna ixtiyarı olmasa da. Vəkil qanunları xatırladıb çıxmaqdan imtina eləmişdi, bu zaman salonun mühafizəçiləri vəkilin ayaq və başından tutub onu bayıra atmışdılar. Bu prosesin də videosu internetdə durur.

Sözümün canı odur ki, onsuz qanunsuzluq və korrupsiya ilə Azərbaycanı dünyada tanıdırsınız, heç olmazsa imkan verin belə koloritli, məzəli videolar çəkilsin, dünyaya yayılsın. Bu, gərginliyi azaldan, cəmiyyətdə yumoru artıran, hətta deyərdim ölkəyə turist cəlb edən detallardır. Bizim dövlət orqanlarında, məhkəmələrdə hər gün nə qədər belə tragikomik hadisələr olur, videosu çəkilmir deyə it-bata düşür. Çəkilsə, bəlkə gələcəkdə bizdə "Mimino" kimi filmlərin yaranmasına stimul olar.

# Azərbaycan üçün kritik həftə




# Ölkəmizə qarşı diplomatik savaş başlayır - Bakı çarpaz atəş altda

## Rəsmi Bakı yeni demokratiya və Qarabağ testi qarşısında; AŞPA-nın qış sessiyasında gedəcək müzakirələr və qəbul ediləcək qətnamələr ABŞ Konqresində ölkəmizlə bağlı sənədin də aqibətinə təsirsiz ötüşməyəcək; iqtidarın təhdidlərə qarşı ən effektli ön hazırlığı siyasi dustaq probleminin həlli ola bilər...

**Azərbaycan üçün yetərincə gərgin bir həftə başlayır. Önümüzdəki günlərdə bu xüsusda, ən azı, iki mühüm hadisə gözlənilir və onların hər ikisi ölkəmizin beynəlxalq imicinə müsbət və ya neqativ xallar gətirmək gücündədir.**

Birinci hadisə Avropa Şurası Parlament Assambleyasının (AŞPA) sabah başlayacaq qış sessiyasında cərəyan edə bilər. Sessiyada Ermənistan əleyhinə üç qətnamə layihəsi səsverməyə çıxarılacaq: onlardan biri "Dağlıq Qarabağ və Azərbaycanın işğal edilmiş digər ərazilərində zorakılığın artması", digəri ermənilərin beynəlxalq hüquqa zidd olaraq Sərsəng su anbarını qanunsuz istismarı barədə məruzəçilərin hazırladığı sənədlər və kəlbəcərli girovlar - Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı Azərbaycan tərəfinin təqdim elədiyi qətnamə layihəsidir.

Birinci iki sənəd böyük səs çoxluğu ilə ötən il müvafiq komitələrin təsdiqindən keçib. Bundan narahat olan erməni tərəfi bəllidir ki, neçə vaxtdır qətnamələrin qəbulunu əngəlləməkdən ötrü diplomatik həmləyə hazırlaşır. Azərbaycana qarşı bir neçə ssenarinin nəzərdə tutulduğu deyilir. Bu barədə yazan erməni mətbuatı düşmən tərəfinin konkret hansı kontur-addımlar atacağının ciddi məxfilik altında olduğunu qeyd edib - ki, Azərbaycan tərəfi tez xəbər tutsa, əks-tədbirlər görə bilməsin.

Vəziyyətin ciddiliyinə dəlalət edən məqamlardan biri də budur ki, əgər həmin sənədləri əngəlləmək və ya onların mətnini Ermənistanın xeyrinə dəyişmək mümkün olmasa, o zaman Ermənistan nümayəndə heyətinin rəhbəri, parlamentin indiki vitse-spikeri Ermine Naqdalyan vəzifəsindən istefa verəcəyini bəyanlayıb.

***

Qeyd edək ki, AŞPA bir neçə il öncə də Ermənistanın işğalı ilə bağlı ədalətli qətnamə qəbul edib. Ancaq indi birdən-birə iki (hətta üç) analoji sənəddən söhbət gedir - həm də kifayət qədər həssas beynəlxalq vəziyyətdə. Üstəlik, bu, Rusiyanın Krımı işğal eləməsindən sonra təşkilatın öz prinsiplərinə sadiqliyin nümayişi baxımından əhəmiyyət daşıyır.

O üzdən rəsmi Bakı onların qəbul edilməsinə ikiqat səy göstərməli, yardımçı olmalıdır. Çünki sənədlər həlledici gücə malik olmasa da, prosesin özü ideoloji və prinsip məsələsidir, prinsipial məsələdir. Bununla nüfuzlu bir beynəlxalq təşkilat Ermənistanın işğalçılıq siyasətinə açıq və birmənalı qiymət vermiş olacaq. Minsk Qrupunun ermənipərəst davranışlarından yorulan Azərbaycan üçün bu, heç də az önəm kəsb eləmir və işğalçıya xoş üz göstərən həmsədrlər üçün "soyuq duş" effektli ola bilər. Yeri gəlmişkən, həmsədrlərin qətnamələrlə bağlı yaydığı son bəyanat onların da ermənilərin xeyrinə narahatlıq keçirdiyini ortaya qoyub.

Odur ki, sənədlərin yüzdə yüz keçməsi üçün rəsmi Bakının da stimullaşdırıcı addımlarına ehtiyac var - ilk növbədə də siyasi dustaqlar məsələsində. Yaddan çıxarmaq olmaz ki, əgər Azərbaycan hakimiyyəti Dağlıq Qarabağ məsələsini prioritet hesab edirsə, AŞPA üçün prioritet təməl insan haqları, universal dəyərlər, rəsmi Bakının bu sahədə götürdüyü öhdəliklərdir.

Söhbət öncəliklə siyasi məhbusların hamısını və ya böyük hissəsini, ələlxüsus Avropa Məhkəməsinin qeyd-şərtsiz azad olunmasını tələb etdiyi dustaqları buraxmaqdan gedir. Azərbaycanın hazırkı qəliz iqtisadi-sosial durumunda bu inadkarlıq xüsusilə mənasız görünür. Əvəzində erməni tərəfi siyasi məhbus problemindən gen-bol öz xeyrinə istifadə şansı qazanır.

Doğrudur, son vaxtlar hakimiyyətin bu məsələdə yumşaqlığı sezilir - Nardaran ağsaqqalı Məşədi Natiqin, üsyankar müstəntiq Rüfət Səfərovun ev dustaqlığına buraxılması buna kövrək əsaslar yaradır. Ancaq aydındır ki, problem köklü şəkildə həllini tapmayınca, o həm hakimiyyətin, həm də Azərbaycanın başı üzərində daim Domokl qılıncı kimi asılı qalacaq.

***

AŞPA qətnamələrinin taleyinə başqa bir məsələ də təsir göstərmək gücündədir. Məsələ ondadır ki, Avropa Şurasının baş katibi Torbyörn Yaqland ötən ilin sonlarında ilk dəfə olaraq Avropa İnsan Haqları Konvensiyasının 52-ci maddəsinin imkan verdiyi səlahiyyət çərçivəsində Azərbaycanın Avropa İnsan Haqları Konvensiyasını necə yerinə yetirməsi üzrə rəsmi araşdırmaya başlamağa göstəriş verib. Öz qərarı ilə bağlı baş katib o zaman demişdi: "Avropa İnsan Haqları Məhkəməsinin qərarları Azərbaycanda tənqidi səslərin susdurulması, söz azadlığının məhdudlaşdırılması üçün hüququn özbaşına (əsassız) tətbiqini üzə çıxarıb. Belə narahatedici bir şəraitdə durumun düzəlməsinə yönəlik müsbət addım atılmadığından, Azərbaycana təmsilçilər göndərəcəyəm. Onlar ölkənin insan haqları konvensiyasının icrası ilə bağlı hakimiyyətdən izahat istəyəcəklər".

Bundan öncə isə Yaqland Azərbaycanda insan haqları üzrə hökumətlə birgə yaradılan İşçi Qrupdan çıxmışdı. Sübhə yox ki, Avropa Şurası baş katibinin mövqeyi də Ermənistanın işğalçılığı barədə AŞPA qətnamələrinə təsir eləmək gücündədir.

***

Nəhayət, yanvarın sonuncu həftəsində ABŞ Konqresinin Helsinki Komissiyasının sədri Krist Smitin Azərbaycan hakimiyyəti əleyhinə hazırladığı sanksiya sənədi layihəsinin müzakirəyə çıxarılması da gözlənilir. Artıq konqresmenlərin qış tətili başa çatıb. Böyük ehtimalla, AŞPA-da Qarabağla bağlı qəbul ediləcək qətnamələr bu sənədin də aqibətinə izsiz ötüşməyəcək.

Bəzi iddialara görə, ABŞ Konqresi, son olaraq isə prezident Barak Obama bir neçə səbəbdən Smitin təşəbbüsünü dəstəkləməyəcək. Bunlar Azərbaycanın Amerika üçün bölgədə strateji önəmini ehtiva edən amillərdir. Lakin İran üzərindən beynəlxalq sanksiyaların götürülməsindən sonra Azərbaycanın Amerika üçün energetik və geosiyasi dəyərinin azalması fonunda bu amillər az effektli də ola bilər.

❑ Siyasət şöbəsi

# Böhrandan xilas yolu: Azərbaycan hansı modeli tətbiq etsin?

## Müxalif partiya lideri yeni model təklif edir...

**Azərbaycan iqtisadiyyatını böhrandan xilas etmək üçün iqtidarının Polşa modelinə üstünlük verəcəyi, bunun üçün Polşadan mütəxəssislər dəvət edildiyi bildirilir. Qeyd olunur ki, böhrandan qurtuluş üçün ölkə iqtisadiyyatı yeni modeldə qurulacaq.**

Məlumatlarda deyilir ki, manatın ikinci devalvasiyasından sonra hakimiyyət vəziyyətdən çıxış yolu tapmaq üçün ciddi çabalar içindədir və bu məqsədlə üç ayrı-ayrı ölkədən Bakıya ekspert-məsləhətçi qrupu çağırılıb. Bu ölkələr - iqtisadi sıçrayış eləmiş Sinqapur, Latviya və Polşadır. İddialara görə, həmin ekspertlər 10-15 gün ərzində ölkənin iqtisadi və biznes göstəricilərini təhlil edərək, rəhbərliyə müvafiq tövsiyələr veriblər. Bakının Sinqapur və Latviya yox, Azərbaycanı yenidən qurmaq, iqtisadiyyatı sıfırdan modelləşdirməyə başlamaq üçün məhz Polşa variantına üstünlük verməsi də yayılan xəbərlər sırasındadır.

Bu qərara hansı motivlərin təsir etdiyi deyilmir. İstisna deyil ki, son anda Azərbaycanın Avrasiya məkanının bir parçası və Avropa Şurasının üzvü olması gerçəkliyi, habelə Polşanın qısa zamanda iqtisadi yüksəlişə nail olması və bəzi başqa faktorlar həlledici rol oynayıb.

Azərbaycanın müxalif siyasətçilərindən ADP sədri Sərdar Cəlaloğlu isə "Yeni Müsavat"a açıqlamasında bildirib ki, böhranı yaradan səbəblər aradan qaldırılmasa, heç bir model ölkəni düşdüyü böhrandan çıxara bilməyəcək. Azərbaycanda böhranın əsas səbəbi hökumət üzvləridir, bir sıra qanunlardır. Öncə bunlar dəyişməlidir: "Polşanı SSRİ zamanında digər sosialist ölkələrindən fərqləndirən bir sıra özəlliklər var idi. Sovet hökumətində xüsusi mülkiyyətin heç bir növünə icazə verilmədiyi halda Polşada müəyyən xüsusi mülkiyyətə icazə verilmişdi və orada çoxpartiyalı sistem mövcud idi. Polşanın özəlliklərindən biri burada həmkarlar ittifaqı hərəkatının çox güclü olması idi. Təsadüfi deyil ki, Lex Valensia da həmkarlar ittifaqının yetişdirməsi kimi meydana çıxmışdı. Üçüncü xüsusiyyət ondan ibarət idi ki, Polşa katolik dövləti idi, Roma papası da milliyyətcə polyak idi. Polşalılar mənəvi cəhətdən Allaha yaxın xalqdır. Bütün bunlara görə də Roma papasının bütün çıxışları Allahın mesajı kimi qəbul edilirdi. Təsadüfi deyil ki, Polşada xalq hərəkatının başlanması Roma papası İohan Pavelin Polşadakı çıxışından sonra baş vermişdi. Papa bəyan etmişdi ki, sizin sosializmə qarşı apardığınız mübarizədə Allah yanınızda olacaq. Sosialist rejiminin dağılmasında məhz Polşa çox önəmli rol oynadı. Polşada sosializmdən kapitalizmə keçid zamanı bir böhran yaranmışdı. Bu transformasiya böhranı idi. Böhrandan çıxmaq üçün Polşada "şok terapiyası" siyasəti həyata keçirildi. "Şok terapiyası" siyasətini həyata keçirməzdən öncə hökumətin əlində islahatlar paketi var idi və həmin sənədə əsaslanıb çox radikal iqtisadi, siyasi islahatlar həyata keçirməyə başlamışdılar. Xalq həmin şok terapiyası siyasəti tətbiq edilməyə başlayanda artıq qarşılarında yeni bir hökumət, yeni parlament, yeni bir idarəçilik gördü. Ona görə də tətbiq edilən "şok terapiyası" siyasəti Polşanın böyük sürətlə sosializmdən kapitalizmə uğurlu keçidin, inkişafın başlanğıcını təmin etdi. Polşanın iqtisadi, siyasi inkişafının təməlləri bu cür qoyuldu. Azərbaycan 25 ilə yaxındır sovet rejimindən çıxıb, lakin hələ nə normal kapitalizmə keçid edib, nə normal bazar iqtisadiyyatına keçib. Ümumiyyətlə, Polşa ilə Azərbaycan arasında hər hansı bir oxşarlıq yoxdur. Hakimiyyət hətta Polşa modelini tətbiq etmək istəyirsə belə, hazırkı hökumət, hökumətin qurulması qaydaları, hazırkı parlament qala-qala heç bir uğur əldə etmək mümkün deyil. Hökumətin əlində hazırda heç bir radikal islahat paketi yoxdur".


Sərdar Cəlaloğlu


Vaqif Hacıbəyli

S.Cəlaloğlu qeyd etdi ki, Azərbaycanı böhrandan çıxarmaq istəyiriksə, gedib Sinqapurdan, ordan-burdan adam gətirmək lazım deyil: "Biz sinqapurlulardan çox ağıllıyıq. Şəxsən mən özümü deyirəm, Sinqapurun ən yaxşı iqtisadçısını gətirin, onu başa salım ki, Azərbaycanda böhrandan necə çıxmaq olar. Praktikada biz nə görürük? Dünyanın müxtəlif ölkələrində zaman-zaman eynilə böhran yaranıb. Böhrandan çıxmaq üçün birinci addım böhrana səbəb olan siyasi, iqtisadi institutların dəyişdirilməsi olmalıdır. Yəni Nazirlər Kabinetinin, parlamentin və qanunların dəyişdirilməsi ilk addım olmalıdır. Azərbaycan iqtidarı bunu etmədən on il də keçsə, böhrandan çıxmağa nail ola bilməz. Bu addımları atmadan istəyir gedib lap Amerikadan, Yaponiyadan, başqa planetdən ekspertlər gətirsinlər, nəticə olmayacaq".

ADP sədrinin fikrincə, Azərbaycan böhrandan çıxmaq üçün Qazaxıstan modelini tətbiq etməlidir: "Qazaxıstan bizə yaxın ölkədir. Qazaxıstan prezidenti Nazarbayevin böhrandan çıxmaqla bağlı addımlarının nədən ibarət olduğuna diqqət edək. Böhrandan üç ay öncə Nazarbayev bütün banklara göstəriş verdi ki, vətəndaşların banklarda olan depozitləri dollar hesabına keçirilsin. Deməli, hələ milli valyuta ölməmişdən qabaq Qazaxıstan vətəndaşlarının banklarda olan vəsaiti dövlət tərəfindən qarantiya altına alındı. Göstəriş verildi ki, kimin əlində milli valyuta var, təcili onu dollara dəyişsin. Üçüncü addım parlamenti buraxmaq oldu. Güman ki, növbəti addım kimi Nazarbayev hökumətin tərkibini və bəzi qanunları dəyişəcək. Azərbaycan ən azı Qazaxıstanın getdiyi yolu, böhrandan çıxmaq üçün Qazaxıstan modelini təkrarlamalıdır. Azərbaycan məmurları, hökuməti o qədər demoralizəsiya olub, qanunlar o qədər mürtəcedir ki, bunları dəyişmədən böhrandan çıxmaq mümkün deyil. Ölkədə birinci böhranı yaradan səbəblər aradan qaldırılmalıdır. Hökumətin təşkili qaydası dəyişməlidir. Bundan sonra hansısa modeli tətbiq etmək mümkün olar. Azərbaycanda böhranın səbəbi uzun illərdir mövcud olan hökumət, hökumətin üzvləri, demokratik parlamentin olmaması, mürtəce qanunlardır. Bunlar dəyişməsə, Azərbaycan böhrandan çıxa bilməz və bütün axtarışlar nəticəsiz olacaq. Azərbaycanı böhrana salan səbəblər nə Polşada, nə Pribaltikada, nə İndoneziyada olub. Ona görə də Azərbaycan spesifikasına uyğun ideyalar, modellər tətbiq edilməlidir. Biz bu istiqamətdə təklifləri veririk. Çox təəssüf ki, hakimiyyət bizə qulaq asmaq əvəzinə gedib Sinqapurdan, ordan-burdan ekspertlər gətirir".

Əhrar Partiyasının sədri Vaqif Hacıbəyli isə bildirib ki, islahatların Polşa variantı "şok terapiyası" kimi xarakterizə edilən islahatlardı. 1989-90-cı illərdə Polşa hökumətində maliyyə naziri olan Baltseroviçin planı əsasında belə islahatlar həyata keçirilib. Baltseroviç planı o vaxt sosialist təsərrüfat sistemindən xilas olmağa çalışan Polşada daxili qiymətlərin liberalizasiyası və idxalın artımı ilə yanaşı dollar kursunun sabitləşməsi və onun məzənnəsinin tətbiqini nəzərdə tuturdu. Həmin illərdə bank sistemində və pul-kredit siyasətində aparılan islahatlar, kapital və iş bazarının yaradılması nəticəsində Polşa iqtisadiyyatının tərəqqisinin əsası qoyuldu: "Azərbaycanda bu modelin tətbiqinin mümkün olub-olmadığını həmin sahənin mütəxəssisləri daha dəqiq bilər. Amma mən hesab edirəm ki, islahatların real tətbiqi üçün ən əvvəl Azərbaycanın öz Baltceroviçi olmalıdır. İndiki maliyyə naziri Samir Şərifov "devalvasiya" təşəbbüsləri ilə "şok" yaratmağı bacarsa da, hələlik iqtisadiyyatda hansısa terapiyanı müşahidə edə bilmirik. Əhalidə manata etimadı artırmaq, hiperinflyasiya təhlükəsini önləmək məqsədi ilə əmanətlərin tam təminatlı sığortalanması, valyuta mübadilə məntəqələrinin fəaliyyətinin dayandırılması, inzibati yollarla ərzaq məhsullarının qiymətlərinin tənzimlənməsi kimi addımlar müəyyən səmərə verə bilər. Amma bu cür xaotik, qeyri-ardıcıl addımlarla ölkəni iqtisadi bataqlıqdan çıxarmaq mümkün deyil. Sistemli, aydın və kompleks xarakter daşıyan islahatlar planı hazırlanıb cəmiyyətə təqdim olunmalı və bu planın müəllifləri də, icraçıları da xalqa məlum olmalıdır. İslahatlara başlamaq üçün əvvəl Azərbaycanın öz Baltceroviçi olmalıdır".

❑ Etibar SEYİDAĞA

# Villalar kəndi alan orta ranqlı məmur...



Xalid KAZIMLI

**Sadə, "şok"suz, "müdhiş fakt"sız bir başlıqdır, belədir: "Azərbaycan məmurunun arvadı Türkiyədə 20 milyon dollara 16 villa alıb". Yazını oxuyursan, yazıya yerləşdirilmiş sənədlərin şəkillərinə baxırsan və görürsən ki, ortada təkzib ediləcək bir şey yoxdur. Hər şey ortadadır.**

Adı çəkilən, ünvanı göstərilən məmur elə də böyük bir vəzifə yiyəsi deyil, dövləti idarə edənlərin 3 mini bir toplantıya çağırılası olsa, bəlkə də o adama dəvət gəlməz. ARDNŞ-də idarə rəisidir adam, şirkətin kapital qoyuluşuna məsuldur.

Ancaq işə baxın, bu orta ranqlı məmurun əli milyonlarla oynayırmış. Əgər onun xanımı bir dəfəyə Bodrumda 16 villaya 20 milyon saya bilirsə, demək, azı iki o qədər evi, villası, imarəti də öz ölkəmizin yaşıl rayonlarında - Qubada, Şamaxıda, İsmayıllıda, Xaçmazda, Masallıda, eləcə də paytaxtın yaxşı yerlərində var.

Bu qədər villanı almaqda məqsəd, əlbəttə ki, zəruri ehtiyacdan doğmur. Məmur ailəsi ilin isti aylarını kurort zonasında yaşamaq istərsə, ona bir villa da bəsdir. Məqsəd əldə olan böyük pulları yumaq, dəyərdən düşməyən kapitala çevirməkdir.

Məlumdur ki, pul, qızıl, daş-qaş elə şeydir ki, vaxtaşırı qiymətdən düşür. Hətta asanlıqla oğurlana da bilər. Daşınmaz əmlak isə heç vaxt qiymətdən düşmür, əksinə, ildən-ilə qiyməti artır. Ona görə də əlində haram milyonlar olan hər kəs ölkədə və xaricdə çoxlu evlər, villalar,torpaq sahələri alaraq milyonlarını qoruyub saxlamağa çalışırlar.

ARDNŞ-in (SOCAR) idarə rəisi də o düşüncəylə Bodrumda o qədər villa alıb.

Ancaq indi onu ifşa ediblər və barəsindəki təkzib edilməz materiallar sənədlü-sübutlu şəkildə mediaya ötürülüb.

Bunu kim edib, dəxli yoxdur. Əslində, burada elə bir heç sirr də yoxdur. Bir qayda olaraq bu kimi ifşaedici dosyeləri belə məlumatlara çıxışı olan şəxslər edirlər. İşləri budur.

Əsas odur ki, belə bir fakt var və onun üstü açılıb.

Bu, əl altında olan və mediaya, ictimaiyyətə açıqlanmayan minlərlə dosyedən biridir. Görünür, dosyesi açıqlanan məmurun qələmi qırılıb, fətvası verilib deyə, adı dilə-dişə salınıb.

Tək o deyil, ölkədə minlərlə başqa milyonçu məmurlar da var. Bu dövlətin hüdudsuz sərvətinin talanıb mənimsənilməsi bu cür adamları tamahkarlığı üzündəndir.

Təsəvvür edin, hər onun kimi məmur xaricdə 20 milyon dollarlıq villa, torpaq sahəsi alarsa, o ölkədə minlərlə adam kirayələrdən canını necə qurtara bilər? Heç cür.

Maddi nemətlər bolluğu olan ölkədə maddi sərvətlər bölgüsü bu qədər ədalətsizcəsinə aparılırsa, oğrular, talançılar milyonlara sahib olacaq, sıravi zəhmətkeşlərə isə qəpik-quruş çatacaq.

Azərbaycanın bədbəxtliyi ondadır ki, son illərdə ölkəyə gələn, dövlət büdcəsində və sair fondlarda toplanan böyük pullara çıxışı olan əksər məmurlar özlərini cəzasızlıq mühitində hiss edərək imkanları çatan qədər talançılıq ediblər (və edirlər). Onları bundan çəkindirəcək mexanizm, struktur yoxdur. Adamlar özlərini vahid bir komandanın üzvü sayır, bilirlər ki, bir-birilə qırılmaz tellərlə bağlıdırlar.

Ortada böyük bir hörümçək toru var. Azərbaycan o hörümçək torundadır.

Dövlətin pulunu, malını, xalqın varidatını talayaraq xaricə daşıyanların hamısı bircə-bircə ifşa olunsa, ölkə bu gündə olmaz.

Başqa vaxt tez-tez deyirik, yazırıq ki, Norveçdə neft gəlirlərinin böyük bir hissəsini xərcləmirlər, depozit olaraq gələcək nəsillərə saxlayırlar. Görünür, eyni proses bizdə də gedirmiş. Sadəcə, neft pullarına əli çatan məmurlar onu öz züryətləri, öz gələcək nəsilləri üçün depozit olaraq saxlayırmışlar - Bodrumda villa kəndi alaraq, Londonda malikanə tədarük edərək, İsveçrədə daşınmaz əmlaka milyonlar qoyaraq.

Demək, kapital qoyuluşu buymuş?

YENİ MÜSAVAT
N 17 (6338) 25 yanvar 2016

# Azərbaycan məmurunun arvadı Türkiyədə 20 milyon dollara 16 villa alıb

## Olduqca ciddi korrupsiya əməlinə dəlalət edən faktlar kimə aparıb çıxarır?..




**Virtualaz.or saytının redaksiyasına Azərbaycan neftinin pullarının necə talanmasına dair sensasion dosye daxil olub. Sayt qeyd edir ki, bu iri-miqyaslı korrupsiya əməlinə dair sənədlərin mənbəyi Türkiyədəki həmkarlarımızdır. Və biz belə başa düşürük ki, öz növbəsində türkiyəli jurnalistlərə yüksək vəzifəli azərbaycanlı məmuru ifşa edən bu dosyeni onun kompanyonları sızdırıblar.**

Virtualaz.org yazır: "Belə görünür ki, həmin azərbaycanlı məmur türkiyəli podratçılar qarşısında öz öhdəliklərini yerinə yetirməyib, beləliklə də onlar həmin zəngin və nüfuzlu məmurdan qisas almaq qərarına gəliblər.

Lakin bu məsələdə bizi türklərin motivi qətiyyən maraqlandırmır. Bizi heyrətə salan Azərbaycanın pullarının necə talan edilməsini və həmin məmurun korrupsioner fəaliyyətini əks etdirən təkzibedilməz faktlardır.



Beləliklə, 2014-cü il iyulun 4-də Azərbaycan vətəndaşı, 1974-cü ildə anadan olmuş Mehdiyeva Könül Fərhad qızı Türkiyənin elit kurort bölgəsi Bodrumda, Gökçebel qəsəbəsində 16 ikimərtəbəli villa və 12 min 621.71 kvadratmetr torpaq sahəsi alıb. Könül Mehdiyeva bu əmlakı hansısa Alik Dunkan Morrison və Karen Meri Morrison adlı şəxslərdən satın alıb.

Vətəndaş Mehdiyeva bu əmlakı almaq üçün 20 milyon dollar ödəyib. Redaksiyamızın sərəncamında Mehdiyevanın mülkləri almaq üçün qucaq dolusu milyonlarla dollar nağd pulu necə ödədiyinə dair videokadrlar və fotolar var.

Sual yaranır: bəs Türkiyənin kurort bölgəsində daşınmaz əmlaka 20 milyon dollar kapital qoyan bu biznesvumen kimdir?

Vətəndaş K.Mehdiyeva Salyan rayonunda anadan olub, işləmir. Əvəzində onun əri Azərbaycanda yaxşı tanınan şəxsdir. K.Mehdiyevanın əri dövlət neft şirkəti SOCAR-da tanınmış vəzifəli şəxs Qiymət Mehdiyevdir. O da Salyanda anadan olub.

Qiymət Mehdiyev əvvəllər Azərbaycan Dövlət Neft Akademiyasında, indiki Neft və Sənaye İnstitutunda müəllim işləyib. Lakin SOCAR-da vəzifəyə təyin olunandan sonra sürətlə varlanıb. Q.Mehdiyev SOCAR-ın əsaslı kapital qoyuluşları İdarəsinin rəis müavinidir. Onu Azərbaycanın ən varlı və əli-açıq adamlarından biri kimi xarakterizə edirlər. SOCAR sistemində tikintilər üzrə bütün podrat işlərinə Qiymət Mehdiyev məsuldur. Əlbətdə, bu məmurun rəsmi maaşı Türkiyədə daşınmaz əmlaka yatırılan pullarla müqayisədə cüzidir, ayda cəmi bir neçə min manatdır. Razılaşın ki, xaricdə on milyonlarla dolları daşınmaz əmlaka birdən yatırmağa ancaq amerikalı milyarder Uorren Baffet kimilərinin gücü çatardı.

Lakin mötəbər mənbələr deyir ki, Qiymət Mehdiyev SOCAR-n vitse-prezidenti Mikayıl İsmayılovun ən etibarlı adamıdır, onun "sağ əli"dir. M.İsmayılov oxuculara tanış personajdır. O, SOCAR sistemində faktiki olaraq boz kardinaldır, şirkətdə bütün tikinti və maliyyə işlərini o kurasiya edir. Və M.İsmayılov bütün şübhəli layihələrini etibarlı adamı Qiymət Mehdiyevin əli ilə həyata keçirir.

Olduqca ciddi korrupsiya əməlinə dəlalət edən faktlar ortadadır. Və prezident İlham Əliyevin Nazirlər Kabinetinin iclasında israrlı çağırışlarını nəzərə alaraq hüquq-mühafizə orqanları, ilk növbədə Baş Prokurorluq SOCAR-ın vəzifəli şəxslərindən birinin arvadının Türkiyədə 20 milyon dollara daşınmaz əmlak almasını təcili araşdırmalıdır. Bu fakt ölkədən kapitalın necə çıxarıldığına bir daha dəlalət edir!

Dövlət büdcəsini talayırlar, vəsaitləri mənimsəyirlər və Bodrumda yüzlərlə sot torpaq sahəsinə, 16 villaya yatırırlar. İnanın ki, bu hələ Mikayıl İsmayılov-Qiymət Mehdiyev duetinin korrupsioner fəaliyyətinə dair ilk faktdır. Türkiyəli həmkarlarımız bizə SOCAR sistemindəki dəhşətli korrupsiyanın izinə düşməyə kömək edən yeni faktlar verəcəklərini vəd ediblər. Biz isə hələlik Qiymət Mehdiyevin və onun şefi Mikayıl İsmayılovun reaksiyasını gözləyirik..."

# "Sovetski"nin son durumu

## Söküntü prosesləri sürətləndirilib



**"Sovetski" kimi tanınan məhəllədə söküntü işləri daha da sürətləndirilib. Musavat.com-un məlumatına görə, burada söküntü işləri demək olar ki, şənbə və bazar günləri də daxil olmaqla hər gün aparılır.**

Məhəllənin artıq Mirzağa Əliyev küçəsi, Dilarə Əliyeva, Süleyman Rəhimov küçələrinin bir hissəsi, Mustafa Sübhi, Zülfi Adıgözəlov, Abdulla Şaiq küçələri tamamilə sökülüb. İndiyə qədər bu məhəllədə 2000-dən çox ev sökülsə də hökumətin təklif etdiyi hər kvadratmetrə görə 1500 manat məbləğində olan kompensasiya ilə razılaşmayıb oradan köçməyənlər də var. Köçməyənlər isə daha çox mənzillərinin kvadratı az olan ailələrdir. Onlar bildirirlər ki, daşınmaz əmlak bazarında qiymətlər yüksək olduğu üçün hökumətin təklif etdiyi 1500 manatla haradasa ev almaq çətin məsələdir. Ona görə də yaşadıqları məkandan köçmək istəmirlər.

Sakin Kərim Qasımov hesab edir ki, hökumət hazırkı şəraitdə kompensasiyanı artırmalıdır: "Manatın devalvasiyasından sonra hər şeyin qiyməti qalxıb. Elə tikinti bazarında da qiymətlər kəllə-çarxa çatıb. Xüsusilə də taxtanın qiyməti iki dəfə qalxıb. Əvvəl düşünürdük ki, hökumətin verdiyi pulu alıb haradasa ev tikək. İndi onu da etmək mümkün deyil. Belə olduğu təqdirdə bir yol var. O da hökumətin verəcəyi 1500 manatı artırmasıdır. Buranı sökürlər, nə qədər tikinti material əldə edirlər. Madam ki, bazarda qiymətlər qalxıb, hökumət də bizim evdən əldə etdiyi materialın qiymətini qaldırıb, verəcəyi pulun məbləğin artırsın. İndi söke-sökə gedirlər. Kommunal xətlərə dəyməsələr də sökülən evlərin işıqları kəsilir. Elektrik xətlərini haradan gəldi aparılır. Elə yer var ki, elektrik xəttin bağlayıblar qaz turbasına. Bunların hamısı təhlükədir. Hər tərəf də sökülür. Hava yaxşı olanda tozdan, yağış yağanda da palçıqdan tərpənmək olmur. Ancaq haqqına deyim ki, heç kim bizi dili ilə deyib məcbur etmir ki, evimizdən çıxaq. Sadəcə şərait elədir ki, burada yaşamaq çətinləşir".



Ərazidə çalışan ustalar isə bildirdilər ki, söküntü aparıldıqca ətrafı təmizləyəcəklər. Ustaların sözlərinə görə, evlər söküldükcə daşları və digər materialları aparıb, oranı normal vəziyyətə salacaqlar.

Elə artıq Azərbaycan Milli Dram Teatrının arxa hissəsində abadlıq işlərinə başlanıldığı hiss olunur. Orada sökülən evlərin daşları topa şəkildə bir yerə yığılıb. Buradan isə kamazlar vasitəsi ilə daşınır.

İqtisadçılar isə hesab edirlər ki, bu ərazilərdə hər hansı bina, yaxud da bu kimi yaşayış yeri inşa edilməyəcək. İqtisadçı ekspert Vüqar Bayramov musavat.com-a mövzu ilə bağlı bildirib: ""Sovetski" kimi tanınan ərazidə sosial obyektlərin salınması mümkündür. Ora əsasən investorların cəlb edilməsi nəzərdə tutulur. Öncədən də yanaşma ondan ibarətdir ki, həmin ərazi xarici investorlar cəlb edilməklə, uzunmüddətli icarəyə verilsin. Bu baxımdan indiki halda həmin istiqamət üzrə büdcədən iri həcmli ayırmaların həyata keçirilməsi mümkün deyil. "Sovetski" və digər söküntü gedən yerlərdə məqsədəuyğun yol xarici investorlar hesabına həmin ərazilərin yenidən qurulmasını həyata keçirmək və uzunmüddətli dövr üçün icarəyə verməkdir".

❑ **Əli RAİS**

# "Özünü asan" aktyor danışdı: "Eşidəndə şoka düşdüm..."

## Aktyorun mobil telefonundakı mesajlar əsl həqiqəti ortaya çıxardıb



**"Aktyor Asim Məmmədovun özünü asması xəbəri yalandır". Bu barədə Mingəçevir Dövlət Dram Teatrının direktor müavini Vüsal Məmmədov "Yeni Müsavat"a açıqlamasında bildirib.**

Onun sözlərinə görə, hadisənin baş verdiyi iddia olunan vaxtda aktyor tamaşada məşqdə olub: "Həmin vaxt teatrımızda yenicə baş rejissor təyin olunan Xəzər Gəncəlinin rəhbərliyi ilə "Müfəttiş" tamaşasının məşqi gedirdi. Məşq prosesi zamanı, aktyorun da orda iştirak etdiyi bir vaxtda gördük ki, mətbuatda aktyorun özünü asması ilə bağlı xəbərlər yayılıb. Dərhal onunla görüşüb məsələni aydınlaşdırmağa çalışdıq. O bildirdi ki, belə bir hadisə olmayıb. Sadəcə, onun adından istifadə edilib".

Teatr rəsmisi bildirib ki, bu məsələdə bu yaxınlarda teatrdan qovulan aktyor İbrahim Salamovun "xüsusi əməyi" var: "Aktyor Asim Məmmədovun kənarda 7-8 min borcu var. Bundan xəbər tutan İbarhim Salamov onunla görüşüb məsləhət edib ki, gəl, sənin məsələni mətbuata qaldırıb şişirdək, bundan sonra borclu olduğu adamlar qaçıb gizlənəcək və səndən heç kim pul tələb etməyəcək. Daha sonra hansısa jurnalist Asim Məmmədova zəng edərək onun borcu olub-olmadığı barədə sual verib və mətbuatda əsassız məlumat dərc edib. Bu barədə Asim Məmmədov öz izahatında bildirib və bizə İbrahim Salamovun ona yazdığı mesajları göstərib".

Vüsal Məmmədov əsassız məlumatın yayılmasına görə bəzi jurnalistləri qınayıb: "Bəzi jurnalistlər reytinq xətrinə insan taleyi ilə oynayır. Asim Məmmədov teatrın sevilən, ali dərəcəli aktyorudur. Bu, sadəcə Salamov İbrahimin teatrımıza qarşı növbəti çirkin bir oyunu, kampaniyasıdır. Aktyorun kiməsə borcu varsa, onun teatra nə dəxli var?

Asim Məmmədov özü də mətbuata açıqlama verərək bildirib ki, əgər belə bir hadisə olsaydı, onun boğazında hansısa izlər olardı.

Məsələ ilə əlaqədar aktyorun özü ilə əlaqə saxladıq. O, həqiqətən borcu olduğunu, lakin heç vaxt intihar etmək barədə düşünmədiyini deyib: "Bir neçə gün bundan əvvəl İbrahim Salamovla görüşüb borcum olduğunu demişdim. O da təklif etdi ki, gəl bunu mətbuata çıxardaq. Lakin mətbuata hansı məlumat verdiyindən xəbərsizəm. Dünən bir jurnalist mənə zəng edib borcum olduğu barədə soruşdu, mən də cavab verdim ki, var. Daha sonra isə xəbər tutdum ki, mətbuatda yayılıb ki, guya mən teatrın tualetindən özümü asmışam. Bu barədə eşidəndə şoka düşdüm. Qohumlarım da çox narahat olub. Məlumat tamamilə yalan və əsassızdır."

Onu da əlavə edək ki, Mingəçevir Dövlət Dram Teatrı ali dərəcəli aktyoru Asim Məmmədovun barəsində mətbuatda yalan məlumat barədə bəyanat yayıb.

Xatırladaq ki, ölkə.az saytında yayılan məlumata görə, "Mingəçevir Dövlət Dram Teatrının aktyoru Asim Məmmədov intihara cəhd etmək istəyib. Aktyor özünü teatrın tualetində assa da, son anda onu xilas etmək mümkün olub".

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 17 (6338) 25 yanvar 2016

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi




# ATƏT tədbirində Ermənistanla bağlı sürpriz qərar qəbul oluna bilər

Bu həftə Strasburqda da işğalçı ölkəni çətin suallar gözləyir; həmsədrlər ermənilərə görə niyə tələşdadır? **Keçmiş amerikalı vasitəçi:** "Avropa Birliyi Qarabağ məsələsinin həllində fəal iştirak eləməlidir..."

**Bu gün Avropa Şurası Parlament Assambleyasının qış sessiyası öz işinə başlayır. Xəbər verdiyimiz kimi, sabah sessiyada Ermənistan əleyhinə iki qətnamə layihəsi səsverməyə çıxarılacaq. Onlardan biri "Dağlıq Qarabağ və Azərbaycanın işğal edilmiş digər ərazilərində zorakılığın artması", o biri isə Sərsəng su anbarının qanunsuz istismarı haqdadır.**

Son məlumatlara görə, qurumun müzakirəsinə kəlbəcərli girovlar - Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı Azərbaycan tərəfinin hazırladığı qətnamə layihəsi də təqdim olunacaq. Birinci iki sənəd böyük səs çoxluğu ilə ötən il müvafiq komitələrinin təsdiqindən keçib. Bundan narahat olan erməni tərəfi neçə vaxtdır qətnamələrin qəbulunu əngəlləmək üçün bir neçə ssenari hazırlayıb və ölkəmiz əleyhinə diplomatik həmlə etmək niyyətindədir.

Bu barədə yazan erməni mediası düşmən tərəfinin hansı kontur-addımlar atacağının ciddi məxfilik altında olduğunu qeyd edib - ki, Azərbaycan tərəfi tez xəbər tutub kontur-tədbirlər görə bilməsin. O da qeyd edilir ki, əgər həmin sənədləri əngəlləmək və ya mətnini Ermənistanın xeyrinə dəyişmək mümkün olmasa, o zaman Ermənistanın nümayəndə heyətinin rəhbəri, parlamentin indiki vitse-spikeri Ermine Naqdalyan vəzifəsindən istefa verəcək.

***

Ekspertlər sənədlərin təsdiqlənəcəyi ehtimalını yüksək qiymətləndirir, bir şərtlə ki, Azərbaycan tərəfi ona kimi özünü yandıran sürpriz davranış sərgiləməsə. Lakin istənilən halda AŞPA qətnamələri aydındır ki, sülh prosesində real irəliləyiş yaratmaqdan ötrü yetərli deyil. Ona görə ki, münaqişənin həllidə illərdir beynəlxalq təşkilatlar yox, məhz qüdrətli dövlətlər söz sahibidir. Qüdrətli dövlətlər isə Qarabağ ixtilafının həlli uğrunda yox, konfliktə həlledici təsir uğrunda rəqabət aparır.

Onlardan biri və birincisi Rusiyadır. O Rusiya ki, onun rəsmiləri illərdir optimist bəyanatlar versələr də, "yük yerində qalır". Bəs səslənən nikbinlik üçün əsaslar varmı? Konflikt ətrafında mövcud durum barədə danışan politoloq Qabil Hüseynliyə görə, 2015-ci ildə Qarabağ məsələsinin həlli ilə bağlı ümidlər əslində daha çox olub.

Sitat: "Rusiya bu prosesə əl qoyaraq Azərbaycana söz vermişdi ki, ən azı Dağlıq Qarabağ ətrafındakı 7 rayonun geri qaytarılmasına ciddi köməklik göstəriləcək. Rusiya-Türkiyə münasibətlərinin pisləşməsi, Azərbaycanın bu məsələdə prinsipial mövqe nümayiş etdirməsi Rusiyanı bir qədər Qarabağ məsələsindən uzaq salıb". Bunu o, modern.az saytına Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair aparılan danışıqları şərh edərkən deyib.

"Rusiya bunu üzə vurmasa da, son vaxtlar Dağlıq Qarabağa guya Türkiyə əleyhinə olan hərbi silahların yerləşdirilməsi Ermənistanda hava hücumundan müdafiə sistemlərinin yaradılması, oraya hərbi helikopterlərin gətirilməsi, ordunun sayının 2 dəfə artırılması, üstəlik, yeni qırıcı təyyarələrin gətirilməsi fonunda demək olar ki, Ermənistan torpağı bütünlüklə rus silah ambarına çevrilib", - deyə o qeyd edib.

Politoloqun sözlərinə görə, belə şəraitdə Rusiyanın səmimiliyinə də şübhələr yaranmağa başlayıb. Onun qənaətincə, Rusiyanın status-kvonu dəyişdirmək və bölgədəki problemin həllinə nail olmaq üçün bütün qüvvəsini sərf edəcəyi barədə verdiyi açıqlamalar yeni deyil.

"Açığını deyim ki, bu, son 2-3 il ərzində Rusiya tərəfindən dəfələrlə səsləndirilmiş fikirlərdir. Real işə gələndə məsələnin həlli bu və ya digər bəhanələrlə tormozlanır. 2016-cı ildə də Rusiya təntənəli surətdə problemin həllini Putinin dilindən dəyərləndirsə də, buna inanmaq çətindir" - vurğulayıb politoloq.

"ATƏT-in Minsk Qrupunun həmsədri olan Rusiyanın məsələyə biganəliyi digər həmsədr dövlətlərin məsələyə obyektiv yanaşmasını sürətləndirə bilərmi" sualına Qabil Hüseynlinin cavabı belə olub: "Paralel olaraq Avropa ölkələri, ABŞ bu məsələnin həllinə daha aktiv girişiblər. 7 rayonun azad edilməsi məsələsi ABŞ Konqresində, Konqresin müəyyən palatalarında müzakirə edilib. Ədalət naminə demək lazımdır ki, həm ABŞ-ın, həm də Qərb dövlətlərinin (xüsusilə Almaniya) Qarabağ məsələsinin anatomiyası ilə bağlı diqqətçəkici dəyişikliklər var. Ermənistanın təcavüzkar olması, Azərbaycan torpaqlarının işğal edilməsi hər iki dövlət tərəfindən qəbul edilir. 7 rayonun geri qaytarılması və ermənilərin həmin torpaqlardan çıxarılması məsələsi xüsusi vurğulanır. Doğrusu, burdakı səmimiyyətə adamın inanmağı gəlir. Çünki məsələyə ciddi yanaşırlar".

Qabil Hüseynli ATƏT PA-nın Vyanada bu həftə keçiriləcək sessiyasına da Qarabağ məsələsinin müzakirəyə çıxarılacağını proqnozlaşdırıb: "Açığını deyək, dünənə qədər biz Rusiyanın bu prosesə müdaxiləsi nəticəsində nələrəsə nail olacağımıza inanırdıq. Avropa və ABŞ-ın özü bu məsələlərdə, zənnimcə, obyektiv mövqe sərgiləyərək, hər hansı bir təmənna nəzərdə tutmayaraq bu məsələləri yerindən tərpətmək istəyir. ATƏT-in Vyana yığıncağında ermənilər üçün sürpriz ola biləcək qərarlar qəbul edilə bilər. Ən azından bu qərarların qəbulu müəyyən vaxt çəksə də, status-kvonu ciddi surətdə silkələyəcək".



***

Qeyd edək ki, ATƏT PA-nın toplantısında Azərbaycan və Ermənistan nümayəndə heyətlərinin iştirakı gözlənilir. Başqa sözlə, Strasburqla yanaşı, Vyana toplantısında da Qarabağ münaqişəsi kifayət qədər diqqət mərəzində olacaq. Azərbaycan üçün bu, növbəti bir fürsətdir ki, ATƏT PA-da Minsk Qrupunun Qarabağ məsələsində fəaliyyətsizliyini bir daha qaldırsın və daha məqbul format tələb elәsin.

Bunun üçün çox vacibdir ki, ən azı ATƏT PA-nın bəyanatının postsovet məkanındakı münaqişələrə həsr olunmuş hissəsində Azərbaycanın ərazi bütövlüyü Ukrayna, Gürcüstan, Moldova kimi qeyd-şərtsiz dəstəklənməsinə, təkcə Rusiyanın deyil, erməni işğalının da pislənməsinə nail olunsun və ermənilərə həqiqi mənada pis bir sürpriz edilsin.

Belə bir sürpriz AŞPA-da Azərbaycanın leyinə qəbul ediləcək qətnamələrə xüsusi siyasi rəng qatmaqla onların təsirini birə-iki artırardı. Təsadüfi deyil ki, ermənipərəst həmsədrlərin qətnamələrlə bağlı yaydığı son bəyanat onların da işğalçı tərəfin xeyrinə narahatlıq keçirdiyini ortaya qoyub. Bu, eyni zamanda AŞPA-ya təzyiq və konfliktin çözümünü monopoliyada saxlamaq cəhdidir ki, rəsmi Bakı buna dərhal sərt reaksiyasını bildirməlidir.

***

Avropa Birliyi isə obyektiv səbəblərdən məsələyə AŞPA və ATƏT-dən daha böyük töhfə vermək imkanındadır. "Avropa İttifaqı ATƏT-in Minsk Qrupunun Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə işində daha fəal iştirak etməlidir". "Vestnik Kavkaza" nəşrinə müsahibəsində bunu ABŞ-ın Bakıdakı və Minsk Qrupundakı sabiq səfiri Metyu Brayza AB-nin Qarabağ məsələsində status-kvonun saxlanmasının yolverilməz olmasına dair az öncə səsləndirdiyi bəyanatı şərh edərkən bildirib.

"AB-nin Dağlıq Qarabağdakı status-kvonun qeyri-məqbul olmasına dair bəyanatı Azərbaycanın Ermənistanın danışıqlar prosesində iştirak etməməsi ilə bağlı narahatçılığını əks etdirir. Çünki bölgədəki hərbi vəziyyət Ermənistanı qane edir. Eyni zamanda təmkinli olmağa çağırış Ermənistanın Azərbaycanın hərbi vəziyyəti dəyişməyə çalışması ilə bağlı narahatçılığını əks etdirir ki, bu da öz növbəsində İrəvanı əndişələndirir", - deyə o bildirib.

Diplomat onu da xatırladıb ki, Brüssel ATƏT-in rəhbərliyi altında danışıqlar prosesində, xüsusilə sazişə görə Azərbaycana qaytarılmalı olan ərazilərin statusunun bərpa edilməsində vasitəçi kimi çıxış etməyə hazır olduğunu ifadə edib. Brayza vurğulayıb ki, Aİ-nin ilkin mövqeyi belə olub.

"Konkret mənim mövqeyimə gəlincə, mən artıq çoxdan Avropa Birliyinin Minsk qrupunda daha mühüm rol oynaması zərurətindən çıxış edirəm, çünki hesab edirəm ki, bu müdaxilə danışıqlar prosesinə böyük önəm qatacaq" - əlavə edib amerikalı keçmiş diplomat.

# "Dağlıq Qarabağda baş vermiş hadisələr terrordur"

Ukraynanın sabiq prezidenti Yuşşenkodan **Kremlə ittiham:** "Rusiya dövlət olaraq və siyasi rejim kimi terrorun mənbəyidir..."



**Ukraynanın sabiq prezidenti Viktor Yuşşenko Rusiya əleyhinə növbəti dəfə çıxış edib. Ukrayna KİV-nin məlumatına görə, Yuşşenko Rusiya prezidenti Vladimir Putin və onun rejiminin 2 şeydən qorxduğunu bildirib.**

"Putin və onun rejimi 2 şeydən qorxur. Bu, cəmiyyətin və dünyanın reaksiyasıdır. Cəmiyyətin reaksiyası bu rejimi tez məhv edir". Sabiq prezident Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) keçmiş əməkdaşı Aleksandr Litvinenkonun qətlini nəzərdə tutaraq deyib ki, bu cinayətə Ukraynaya qarşı terrorizm kontekstində yanaşılması vacibdir. "Çünki biz də şərqdə 10 mindən çox övladımızı itirdik. Bu isə terrorizmdir", - deyə o əlavə edib.

Yuşşenko daha sonra Rusiyanın Abxaziya, Dağlıq Qarabağ, Cənubi Osetiyada etdiklərini də terrorizm adlandırıb. "Osetiyada və ya Abxaziyada, Dnestryanıda, Dağlıq Qarabağda baş vermiş hadisələr terrordur. Rusiya dövlət olaraq və siyasi rejim kimi bu terrorun mənbəyidir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi









# Əməkdaşımız Yasamalda daha bir qumarxana aşkarladı

## Bakıda qumarxana biznesi çiçəklənir; yeni məkandan görüntülər...

**Azərbaycanda sürətlə qumarxanalar açılır. Paytaxtla yanaşı, bölgələrdə də bu cür məkanlar çoxalmaqdadır. Bakıda fəaliyyət göstərən loto-qumar məkanlarının bir neçəsindən reportajlar təqdim etmişik. Hər gün külli miqdarda gəlir gətirən bu məkanlar artıq Bakının mərkəzi yerlərində artmaqdadır.**

Loto-qumar məkanlarının bu cür sürətlə açılması və sərbəst şəkildə fəaliyyət göstərməsi onu sübut edir ki, bu məkanlar yüksək rütbəli şəxslərin himayəsində fəaliyyət göstərir.

Musavat.com xəbər verir ki, Bakının Xətai, Binəqədi, Səbayel, Abşeron, Yasamal rayonlarının hər birində bu cür məkanlara rast gəlmək mümkündür. Adlarını sadaladığımız rayonlar hələ ki, bizə məlum olan məkanların yerləşdiyi rayonlardır.

Yollandığımız növbəti məkan Yasamal rayonunda Əhməd Cəmil küçəsində yerləşən binanın (Yasamal parkı ilə üzbəüz) altındadır. Əvvəlcə onu qeyd edək ki, olduğumuz məkanları bir-birindən yalnız ünvanı fərqləndirir. Bu məkanlarda loto-qumar qaydaları eynidir, eyni işçiləri isə fərqli-fərqli məkanlarda görmək mümkündür, obyektlərdə dizayn və iş qaydalar eynidir. Bu sadaladıqlarımız onu deməyə əsas verir ki, bütün bu məkanlar şəbəkə şəklində fəaliyyət göstərir. Ölkəmizdə bir çox sahələr monopoliyada olduğu kimi, görünən budur ki, bu loto-qumar şəbəkəsi də monopoliyadadır.

Bu məkanda ilk rastlaşdığımız fərqlilik ondan ibarətdir ki, burada digər məkanlardan fərqli olaraq kartın biri 1 manat deyil. Oyuna başlamaq üçün mütləq 3-ü 2 manat olan kartları götürmək lazımdır.

Əslində düşünmək olar ki, devalvasiyadan sonra əziyyət çəkən insanlar üçün bu xüsusi endirim kampaniyasıdır. Ancaq bir məsələ də var ki, digər məkanlardan fərqli olaraq burada 1 manata aldığın bir kartla oynamaq mümkün deyil. Yəni iştirakçı olmaq üçün minimum 2 manatından keçməlisən. Əlavə kart artırmaq istəyərkən də yenə də 2 manat verərək üç kart almaq mümkündür.

Oxşar tərəflərindən biri isə loto-qumarda iştirak edənlərə çayın pulsuz verilməsidir.

Əvvəlki yazılarımızda da qeyd etdiyimiz kimi, oyunun şərti kartda olan sıralardan birində olan 6 rəqəmin torbadan çıxan daşlarla uyğun gəlməsidir. İştirakçı "bəsdir və ya "davolna" deyərək udduğunu elan edir. Uduşa qoyulan məbləğ isə iştirakçıların sayına görə dəyişir. Oyuna başlayarkən yığılan pulların yarısı uduşa qoyulur. Oyunda hər hansı bir hiylənin olduğunu demək mümkün deyil. Çünki bu cür məkanlarda qazanılan məbləğ konkret olaraq məlumdur. Oyundan yığılan pulun yarısı uduşa qoyulur. Yarısı isə qazancdır. Bir oyun ən çox 10 dəqiqə çəkir.

Burada oyunlar saat 17:00-da başlayır, səhər saatlarınadək davam edir. Qara pərdələrlə bağlı olan məkan olduqca böyükdür. İlk başlayanda adam sayı az olur. Əsasən axşam saatlarında, iş vaxtından sonra məkanın müştəriləri həddən artıq çox olur. Bütün masalar tam şəkildə dolanda uduşdakı məbləğ 200-300 manatadək yüksəlir. Bu isə o deməkdir ki, məkanda 10 dəqiqəlik bir oyundan 200-300 manat qazanc əldə olunur. Bu məkanda da digərlərində olduğu kimi xeyli sayda işçi var. Loto kartlarını paylayanlar, torbadan daş çıxaranlar, çay paylayanlar və s.

Məkanın daimi müştərilərindən biri ilə söhbətləşərkən öyrənirik ki, axşam saat 19 radələrindən gecə saat 2-3-dək məkanda demək olar ki, boş masa olmur. Bu saatlar ərzində oynanılan hər oyundan- 10 dəqiqədən bir 300 manatadək qazanc əldə edirlər. Bu isə saatda 2 min manatadək qazanc deməkdir. Loto-qumar məkanlarının günlük qazancı minimum 10-12 min manatdır.

Təbii ki, bu cür yüksək qazancların əldə olunduğu məkanları açmaq, himayə etmək sıradan bir insanın işi ola bilməz. Aylıq gəlirləri yüz minlərlə manat olan bu cür obyektləri himayə edənlər təbii ki, var...

Bu məkanlara baxanda insanı düşündürən bir məqam da var: Ölkədə işsizliyin baş alıb getdiyi, son bir neçə aydır ixtisarların vüsət aldığı bir zamanda qumarxanalar, mərc oyunlarının keçirildiyi məkanlar sürətlə artır. Bu cür məkanların müştərisi isə heç vaxt əskik olmur. Asan yolla pul qazanmaq istəyənlərlə yanaşı, işsizlikdən əziyyət çəkən insanların da tapdıqları bir neçə manatla bu cür məkanlara üz tutduğu açıq-aşkar görünür...

❑ **İlkin MURADOV**

# Böhran "Qul bazarı"nı da "vurub": fəhlə çox, iş yox...

## Burada ailəsinə çörəkpulu axtaranlar "yaşayırıq ki, öləcəyimiz gün tez gəlsin" deyirlər






**Manatın ikinci devalvasiyası və neftin kəskin ucuzlaşması səbəbindən ölkədə bütün növ məhsulların qiyməti bahalaşıb. Dövlət və özəl müəssisələrdə isə ixtisarlar əhalinin sosial vəziyyətini daha da ağırlaşdırıb. Böhran tikinti sektorunu da iflic hala salıb. Bir çox infrastruktur layihələrinin dayandırılması və ya təxirə salınması tikinti sahəsində çalışan onlarla fəhləni də işsiz qoydu. Bunu metronun "Xalqlar dostluğu" stansiyasının yaxınlığında yerləşən "Qul bazarı" kimi tanınan əraziyə nəzər saldıqda da hiss etmək olur. Havanın yağışlı və soyuq olmasına baxmayaraq, onlarla insan orada ümidlə gözləyir ki, bəlkə müştəri çıxacaq və ailələrinə çörək pulu qazana biləcəklər.**

"Qul bazarı"nda olan insanların jurnalistlərlə bir o qədər də arası yoxdur. Nə zaman əlində kamera olan şəxs görsələr, ya üzərinə gəlib aqressiv şəkildə onları çəkməməyi söyləyirlər, ya da özləri ərazidən uzaqlaşırlar. Bunun səbəbini isə belə izah edirlər ki, açıqlama verib, şikayətlənərlərsə, buranı bağlayarlar. Lakin onlardan bir neçəsi ilə söhbətimiz alındı.

Müsahibimiz 67 yaşlı bir şəxs idi. Söz verdik ki, nə şəklini çəkəcəyik, nə də adını yazacağıq. Adını soruşduğumuz zaman söylədi ki, xalq bura "Qul bazarı" adı qoyubsa, mənim də adımın nə olmasının önəmi yoxdur. Sadəcə, qul deyə müraciət edə bilərsiz. 67 yaşlı müsahibimiz Kürdəmir rayonundan olduğunu söylədi. Oradakı vəziyyəti isə aşağıdakı kimi izah etdi:

"Bura gördüyünüz kimi, hər kəs bir qarın çörəyi qazanmaq üçün yığışır. Hər zaman burada fəhlələr olublar. Lap ölkədə vəziyyətin yaxşı olduğu zaman da biz iş tapmadığımız üçün bura yığışırdıq. İnsanlar qazanırdı, ev tikdirirdilər, mağaza açırdılar biz də orada fəhləlik edib beş-on manat qazanırdıq. İndi onlar az qazanır, biz isə heç nə qazanmırıq. Son zamanlar iş üçün gələnlərin sayı artıb. İçlərində tələbələr də var. Ancaq müştəri kimi gələnlərin sayından xeyli azalma var. Əvvəllər burada heç olmasa hər saata bir maşın saxlayıb fəhlə istəyərdi. Biz də hamımız qaçardıq, kimisə seçərdilər. İndi yoxdur. Ailəm rayondadır. Özüm də elə buradakı yoldaşlarla bir evdə qalırıq. İnanın ki, evdə nə işıq yandırırıq, nə də qaz. Kirayə haqqın güclə veririk. Hərəyə 25 manat düşür. Heç rayona getməyə də bir ildən çoxdur ki, pul tapmıram. Quru-quru nəyə gedim. Yaşayırıq ki, öləcəyimiz gün tez gəlsin".

"Qul bazarı"nda fəhlələr adətən özlərinin adlarını söyləmirlər. Yaxınlaşan müştəriyə gördükləri işin adını deyirlər. Misal üçün, "daş ustası", "malyar" və sairə. Növbəti həmsöhbətimiz daş ustası oldu. Onun da 47 yaşı var. Adının Famil olduğunu dedi. Deyir ki, bir zamanlar tikinti sahəsində nəzarətçi kimi çalışıb: "Sonradan işlər dayandı. Mən də üz tutdum bura. Əvvəllər kənardan maşınla keçən tanış görəndə utanırdım. "Qul bazarı" sözü də lap adamı mənəvi baxımdan sarsıdır. Sonra öyrəşdim. Hər gün müştəri olsa, hər gün evimizə pul apara bilsək, utanmalı heç nə yoxdur. Kişiyik ailəmizi saxlamaq üçün halal zəhmətə qatlanırıq. Ancaq məsələ odur ki, heç fəhlə kimi də iş tapmaq olmur axı. Nə edəsən, hara gedəsən... Son günlər ərzaqların da qiyməti qalxıb. Yaşamaq artıq zülmdü. Uşağa pul tapıb vermək olmur ki, məktəbə avtobusla getsin. Vəziyyətimiz günü-gündən ağırlaşır. Sahəmlə bağlı əlimdən hər iş gəlir. Hökumət heç olmasa, daimi iş yeri versə, yenə də fəhlə kimi də olsa işləməyə razıyıq. Yetər ki, daimi işimizin olduğunu bilək. Adam daha uşağının qabağına əliboş çıxmaqdan utanır".

❑ **Əli RƏİS**

YENİ MÜSAVAT
N 17 (6338) 25 yanvar 2016

# Restoran və şadlıq evlərində durğunluqdur

## "Deyirlər ki, 2-3 aya vəziyyət düzələcək, biz də gözləyirik"

**Manatın ikinci dəfə devalvasiyası bütün sahələrdə olduğu kimi şadlıq evlərinə, restoranlara da öz mənfi təsirini göstərib. Belə ki, əvvəllər hər gün nişan, toy məclisləri ilə dolub-daşan restoranlar bu gün tərk edilmiş bir sarayı xatırladır. Bir sıra restoranlar ümumi bahalaşma fonunda qiymətləri müəyyən qədər artırsa da, bəziləri heç bir artıma getməyib. Ancaq bir sıra xidmətləri menyudan çıxardaraq ayrıca təklif edilir. Buna görə də toy edənlərin sayında kəskin azalma müşahidə edilir. Hətta əvvəlcədən toy danışan bir sıra insanlar var ki, onlar məclisi təxirə salıblar.**



Yaranmış vəziyyətlə bağlı bir neçə restoranla əlaqə saxladıq.

"Su sonası" restoranının direktoru Mütalib Əhmədov əvvəlki günlərlə müqayisədə, toy sifarişlərinin sayında bir qədər artım olduğunu dedi: "Menyuda heç bir artım yoxdur. Müəyyən qədər endirimlər də etmişik. Toy sifariş edənlərin sayında da artıq irəliləyiş var".

"Xudafərin" şadlıq evinin əməkdaşı Fəridə xanımın sözlərinə görə toyların sayında azalma var: "Əvvəllər toylar daha çox olurdu. İndi azalma müşahidə edirik. Qiymətlərdə də heç bir artım etməmişik. Əvvəlki qiymətlərlə fəaliyyət göstəririk".

"Mega Palace" restoranının inzibatçısı da toyların azaldığını dedi: "Deyirlər ki, 2-3 aya vəziyyət düzələcək. Biz də gözləyirik. Toyların sayında azalma var. Qiymətlərdə isə heç bir endirim və ya artım etməmişik".

"Ay işığı" şadlıq sarayında da heç bir qiymət artımı yoxdur. Qiymətlər qonaqların sayından və seçdiyiniz zaldan asılı olaraq 50-100 manat arasında dəyişir. Bu qiymətlər martın ortasına qədər aktual qalacaq. Ondan sonra isə artım olacağı gözlənilir.

"Gilavar" şadlıq evində hələlik bir dəyişiklik olmasa da, qiymət artımının olacağını deyirlər. Bu şadlıq sarayında hazırda standart menyunun qiyməti 45 manatdır.

"Sərin" restoranında isə menyunun qiyməti 80 manatdır. Əgər indidən toy üçün menyu seçib gün təyin etsəniz, gələcəkdə baş verə biləcək hər hansısa qiymət artımının sizə heç bir aidiyyəti olmayacaq. Hazırda isə bu restoranda qiymətlərdə heç bir artım yoxdur və gözlənilmir.

❑ **Günel MANAFLI**



# Əlil-arestant ədalət axtarışında...

## Rauf Sultanov: "Məni yenidən saxtakarlıqla məhkum etmək istəyirlər"

**Xəzər Rayon Məhkəməsində hakim Samir Mayılovun sədrliyi ilə əlil-arestant Rauf Sultanovun işi üzrə prosesdə yeni situasiya yaranıb. Təqsirləndirilən R.Sultanov ona qarşı saxtakarlıqların araşdırılmadığını, ilkin hazırlıq iclasından bu günə qədər müdafiə hüquqları pozulduğunu əsas gətirərək Apelyasiya Məhkəməsinin barəsindəki qərarından Ali Məhkəməyə kassasiya şikayəti verib:**





"Cinayət işinin materiallarında olan və Bakı Apelyasiya Məhkəməsində təsdiqini tapan saxtakarlıqları ört-basdır etmək istəyirlər. Buna görə də mənim qanunsuz olaraq məhkum edilməyim üçün dəridən-qabıqdan çıxırlar. Mən bununla razılaşmayacağam. Bunu hakim Samir Mayılov da bilsin. Belə ki, Cinayət Prosessual Məcəlləninin tələbinə görə məhkəmənin hazırlıq iclasının keçirilməsinə ən azı 7 gün qalmış müddətdə mənə bildiriş göndərilməli idi. Bundan başqa məcəllənin tələbinə görə təqsirləndirilən şəxs məhkəmə baxışına təqdim edilirsə, o zaman məhkəmənin hazırlıq iclasında qəbul edilmiş qərar 3 gün müddətində təqsirləndirilənə təqdim olunmalıdır. Mənə qərarı da təqdim etməyiblər. Bundan əlavə məhkəmə proseslərindən əvvəl poçt vasitəsi ilə 10-a yaxın vəsatətlə məhkəməyə müraciət etmişəm. Lakin heç bir əsas göstərmədən vəsatətlərim təmin olunmadı. Buna görə də Ali Məhkəməyə kassasiya şikayəti vermişəm. Bakı Apelyasiya Məhkəməsi barəmdə qanunsuz və əsassız hökmü ləğv etdi, amma qərarda imzamın saxtalaşdırılması ilə bağlı mövqe bildirməyib. Hesab edirəm ki, Ali Məhkəmə bu məsələyə də baxmalıdır. Ali Məhkəmə həmin cinayət işinin icraatına xitam verməlidir".

R.Sultanov deyib ki, Xəzər Rayon Məhkəməsində iş üzrə keçirilən sonuncu prosesdə iş üzrə şahid qismində Dilqəm Əliyev, Xatirə Əliyeva və Güləli Hüseynov dindiriliblər: "Mənə verdikləri yeni ittihamın əvvəl gündən saxta olduğunu, saxtakarlıqlarla ittiham aktı quraşdırıldığını dəfələrlə demişəm. Sonuncu prosesdə bu bir daha təsdiqləndi. Dilqəm Əliyev, Xatirə Əliyeva və Güləli Hüseynov qohumdurlar. Məhkmədə dediklərindən belə aydın oldu ki, Dilqəmlə Xatirə ər-arvaddırlar. Güləli Hüseynov Xatirə Əliyevanın atası, Dilqəm Əliyevin qaynatasıdır. Məhkəməyə şahid kimi dəvət olunan Dilqəm Əliyev dedi ki, guya məni Binədə sovxoz tərəfdə görüb, mən ondan pul almışam. Guya mən ona xidmət göstərmişəm, bunun müqabilində pul almışam. Mən o adamı ümumiyyətlə tanımıram. Araşdırdılar, məlum oldu ki, Dilqəm Əliyevin dediyi vaxtda mən həbsdə olmuşam. Cinayət işində onun ifadəsi var ki, başına 2013-cü ildə dəmir boru ilə vurublar. Adam danışığını bilmir. Yəni onun beynində problemləri var. Mən vəsatət verdim ki, onun psixoloji durumu yoxlanılsın. Digər şahid Güləli Hüseynov gəldi dedi ki, guya metronun "Koroğlu" stansiyasının yanında görüşmüşük, mənə pul verib. Bu adam 2-ci qrup əlildir, məhkəmə zalında kimin harada dayandığını görmürdü. Əgər mən pul almışamsa, şahid məni necə görüb? Xatirə Əliyeva da eyni şəkildə danışdı. Dedi ki, ona xidmət göstərmişəm. Nazirliyə məktub yazmışam. Mən bu adamlara xidmət göstərmişəmsə belə, bu, cinayət deyil. Amma mən bu adamlara xidmət göstərməmişəm. Məhkəmədə hər 3 şahid ibtidai istintaq zamanı verdikləri ifadələrdən imtina etdilər. İş üzrə bu adamlardan başqa heç kimin şikayəti, tələbi yoxdur. Hər 3 şəxs məhkəməyə yazılı şəkildə müraciət ediblər ki, mənə qarşı şikayətləri, tələbləri yoxdur. İş üzrə başqa şikayətçilər də yoxdur. Bununla belə məni yenidən saxtakarlıqla məhkum etmək istəyirlər. Buna görə də Ali Məhkəməyə müraciət etməklə ədalətli qərar gözləyirəm. Həmçinin redaksiyanıza da mənim həbsimə yol açan saxtakarlıqları təsdiqləyən ekspertizanın rəyinin fotosurətlərini də təqdim edirəm".

❑ **E.MƏMMƏDƏLİYEV**

# Məmur arvadıdı deyə... tank sürməlidir?



**Sevinc TELMANQIZI**
s.qurbanova@gmail.com

**İndi hamı yenə başlayacaq təəccüblənməyə. Bu xəbəri o birinə ötürəcək, bu biri başqasına. "Xəbərin oldu? Filan məmurun arvadı 20 milyon dollara 16 villa alıb..." Mən də eyni təəccüblə soruşacam ki, hə, nə olsun? Məlumat üçün bir dəfə də mən təkrarlayım: SOCAR-ın əsaslı kapital qoyuluşları İdarəsinin rəis müavin Qiymət Mehdiyevin həyat yoldaşı Könül Mehdiyanın Bodrumda 20 milyon dollara 16 villa alması barədə foto və videofaktları Türkiyə mətbuatı üzə çıxarıb, sonra da məlumat yerli mediaya sızıb. Yəni, hər şey faktla, sənədlərlə təsdiqlənib. Uşaq deyilik, məlumdu ki, Q.Mehdiyev kiminsə qəzəbinə tuş gəlib, ya da düşmənləri puldan buraxıb, bu kompromatı ələ keçirib. Yoxsa ki, məmur Bodrumda villa alar da. O da bizim kimi hər ay qəpik-qəpik pul yığıb, ildə bir dəfə "çerez Tiflis" Türkiyəyə 1 həftəlik istirahətə getməz ki? Axı bu, təbiətin qanununa zidd olar.**

Hansısa idarənin beşinci dərəcəli məmuru da eyni şeyi etmirmi? Bakı kəndlərində hərəsinin bir neçə evi yoxdumu? Nə yayda yolları düşər ora, nə də qışda. İl uzunu işığı yanmaz o villaların. Niyə? Çünki dediyim kimi, təbiətin qanunudur. Siçan kimi xımır-xımır yığmaq kreslonun fəlsəfəsindəndir. Onlar vəzifəyə gəldiyi gündən, kresloya oturduqları dəqiqədən etibarən "sayğac" qurulur. "Nə olar nə olmaz, dar gün üçün" deyib başlayarlar ee... Çəkidə yüngül, vəzndə ağır... Sonra bu yığdıqları torpaq sahəsinə çevrilər, villaya çevrilər, qızıl külçəyə çevrilər... MTN əməliyyatından sonra icra başçılarının milli çekistlərə torpaq sahələrini xəngəl kəsirmiş kimi kəsib necə payladığını unutmusuz?

Sıravi insanın sadəlövh hesablamasını qoyun bir qırağa. "Bunların neçə uşağı var ki, bu qədər ev alırlar" sualı artıq Molla Nəsrəddinin lətifələri qədər gülməlidir. Onlar məsələyə konseptual olaraq yanaşırlar, gözü çıxmış qardaşlarından dərs çıxarıb, onun-bunun adına daşınmaz əmlaklar alırlar. Neft ucuzlaşır ya. Fürsət bu fürsət... Nə taladılar, taladılar. Nəinki uşaqlarına, uşaqlarının uşaqlarına da indidən gün ağlayırlar öz aləmlərində. Düşdükləri günə iki dəsmal lazımdır halbuki.

Özü də təkcə məmurmu edir bunu? Sıradan biznesmen, obyekt sahibi, ticarət adamı əlinə beş qəpik pul düşən kimi eyni addımı atmırmı? Ev alır, torpaq alır, qızıl alır... Bir ucdan alır. Arvadı şubanın birini qarderobdan asıb, o birilərini satın alır. Sanki biri isitmirmiş kimi. Adam tanıyıram ki, Binə yarmarkasında bir neçə dükanı var, amma şəhərdəki çoxmərtəbəli binalarda bir neçə mənzil alıb. Heç birində yaşamır, kirayə də vermir. Sadəcə ayda bir dəfə qulluqçu göndərib, o evləri təmizlətdirir. Məntiq nədir, hansı fəlsəfədi, anlamaq mümkün deyil. Bunu anlamaq üçün onların nə yeyib-içdiklərini bilmək şərtdir.

Halbuki həyat insanın böyründən yel kimi ötüb keçir. Gəzəcək çoxlu ölkə, görəcək gözəlliklər, izlənəcək filmlər, oxunacaq kitablar... Dünya özü boyda möcüzədir. Onu kəşf etmək yerinə daş-divar üçün acgözcəsinə vuruşmaq, paçka-paçka pul yığmaq... inanmıram ki, ingilisin, fransızın, ispanın... həyatında belə prinsip olsun.

Amma məni bu məqamda ən çox düşündürən qadın faktorudur. Rüşvətin qadın əli ilə təsidqlənməsi, fiksə olunması... Hər zaman dediyimiz o həqiqət: hər korrupsioner kişinin arxasında bir tamahkar qadın dayanır faktoru. Bir çox azərbaycanlı ailələrində müşahidə etmişəm bunu. Kişilər bəzi hallarda qadın ağlı, məsləhəti ilə hərəkət edirlər. "Ehtiyac yoxdu, buna da şükür" deyən qadınların ərləri ilə "Dar gün üçün nə lazımsa et" məsləhətini verən qadınların ərləri arasında dağ qədər fərq görmüşəm. Doğrudur, mayasında haram olan kişini heç bir qadın düz yola çəkə bilməz. Amma bir çox hallarda tərəddüd içində qalan kişiyə doğru yolu da qadını göstərir.

Yox, əgər qadın dollar paketlərini sinəsinə sıxıb, notariusun yolunu tutubsa, iş bitmişdir demək. Bundan sonrası kuliminasiya xəttinə qədər davam edəcək. Xeyirlisi...

# Qlobal istiləşmə, yoxsa NASA-nın yalanı?

## Ekoloq: "Qlobal istiləşmə deyə bir anlayış yoxdur, bütün bunlar komersantların oyunudur"

**ABŞ-ın Milli Okean və Atmosfer İdarəsi (NOAA) və NASA son 135 ilin ən isti ilini açıqlayıb. Qlobal temperatur araşdırmaları aparan NASA 2015-ci ilin ən isti il olduğunu bəyan edib. 1880-ci ildən bu günə qədər ölçü aparan ABŞ təşkilatına görə, 2015-də yer kürəsində istilik artımı 2,39°F (1,33°C) olub. Dəniz səthinin temperaturu da orta hesabla artaraq 1,33°F (0,74°C) təşkil edib. Bu isə bir çox insanlarda 2016-cı ilin yayının da ən isti yay olacağı fikri yaradıb.**



Ümumiyyətlə, Ekoloqların fikrincə, əgər dünya birliyi qlobal istiləşmə ilə bağlı vaxtında qabaqlayıcı tədbirlər görməsə, qarşıdakı onilliklər ərzində bəşəriyyət iqlim dəyişikliyinin fəlakətli nəticələri ilə üzləşə bilər. Bəşəriyyətin ümumi gələcəyi ilə bağlı bu məsələlər Parisdə İqlim Dəyişikliyi üzrə BMT Konvensiyası iştirakçılarının 21-ci konfransında ciddi müzakirə edilmişdi. Konfransda bildirilib ki, fəaliyyətsizlik bu əsrin sonunda planetdə havanın temperaturunun 6 dərəcəyədək yüksəlməsinə gətirib çıxara bilər. Əgər ciddi tədbirlər görülməsə, istiləşmə dünyada 1 milyard ton buzlağın əriməsinə, okean sularının səviyyəsinin 4 metr artmasına, gələn əsrlərdə isə bu artımın onlarla metrə çatmasına səbəb ola bilər. Bu, sahil ərazilərinin su altında qalması, yüz milyonlarla insanın həyatının dəyişməsi deməkdir. Digər tərəfdən, başqa regionlarda qlobal istiləşmə su qıtlığına, təxminən 3 milyarda yaxın adamın quraqlıqdan əziyyət çəkməsinə və qlobal miqrasiya proseslərinə səbəb ola bilər.

Ekoloq Telman Zeynalov isə qlobal istiləşmənin mümkün olmadığını, NASA-nın həmişə yalan məlumatlar yaydığını dedi: "2002-ci ildən bəri havalar tədricən soyumağa başlayıb. Rusiyanı 41-45 dərəcə şaxta bürüyür. Bu gün də Qərbi Avropanı qar bürüyür. 3 gün ərzində Azərbaycanın bir çox dağlarına qar yağıb. Bu 3 ayın normasıdır. Biz bu qardan səmərəli istifadə etsək, bizdə quraqlıq təsir etməyəcək. Əgər qış sərt keçirsə, yay quraqlıq keçməlidir. Bu təbiətin qanunudur. Buna görə də NASA-ya inanmaq lazım deyil. Onlar bir neçə il əvvəl Azərbaycanda güclü zəlzələlərin olacağını da deyirdi. Bu da sonradan yalan çıxdı. Qlobal istiləşmə deyilən bir şey yoxdur. İqlim dəyişmələri var. Əgər NASA-nın dediyinə görə, bizim Şimal buzlu okeanında buzlaqlar ərisə, heç yeri soyuq su basmayacaq. Əksinə soyuma prosesi, buzlaq dövrü yaxınlaşacaq. Çünki soyuq su duzlu suyu üstələyəcək. Daşqınların, tufanların sayı, mənfi temperatur artacaq. İqlim dəyişmələrində bunları nəzərə almaq lazımdır: Günəşin fəaliyyəti, yer kürəsinin oxunun, fırlanma gücünün fəaliyyəti, müsbət və mənfi təzyiq, isti və soyuq cərəyanların okeanlarda axını nəzərə alınmalıdır. NASA bunların heç birini nəzərə almır. Bütün bunlar cəfəngiyatdır və komersantların oyunudur. Onlar qlobal istiləşmə adı ilə bir sıra texnologiyaları pul qazanmaq istəyirlər. Necə ki, indi külək enerjisini, Günəş panellərin bizə sırıyırlar".

Qeyd edək ki, dünyada qlobal istiləşmənin qarşısının alınması Kioto protokolu mexanizmi vasitəsilə həyata keçirilib. Bəs Kioto protokolu nədir? Azərbaycanda bu protokolda yer alırmı?

Ekoloji Təbliğat şöbəsinin müdiri İsa Əliyev: "Kioto protokolu BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası çərçivəsində Tərəf ölkələrin emisisyaların azaldılması üzrə öhdəliklərini müəyyən edən beynəlxalq razılaşmadır. Kioto protokolu 1997-ci ildə Yaponiyanın Kioto şəhərində qəbul edilmiş və Rusiya Federasiyasının ratifikasiya etməsindən sonra 2005-ci ildə qüvvəyə minmişdir. Hazırda sənədi 191 ölkə ratifikasiya edib. Azərbaycan 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını, 2000-ci ildə isə Konvensiyanın Kioto protokolunu ratifikasiya etdikdən sonra qlobal iqlim dəyişmələrinin mənfi təsirlərinin yumşaldılması üzrə beynəlxalq səylərə fəal şəkildə qoşulub. Kioto protokolu üzrə öhdəliklərin yerinə yetirilməsinin birinci mərhələsi 2008-2012-ci illəri əhatə edib. 2012-ci ildə Kioto protokolunun 2-ci mərhələsi (2012-2020) üzrə Doha düzəlişi qəbul edilib. Doha düzəlişini 144 ölkə ratifikasiya edəcəyi təqdirdə qüvvəyə minəcəkdir. Lakin həmin düzəlişi indiyə qədər yalnız 50-yə yaxın dövlət ratifikasiya edib. Bu da Doha əlavəsinin 2020-ci ilə qədər qüvvəyə minəcəyini şübhə altına alır. Azərbaycan Kioto protokoluna Doha düzəlişini 14 aprel 2015-ci il tarixində ratifikasiya edib".

İ.Əliyev danışıqlar çətin getsə də 2015-ci ilin dekabrında Yeni razılaşma (Paris razılaşması) qəbul edildiyini bildirdi: "Yeni razılaşmanı tam ideal sənəd olmasa da, ümumilikdə irəliyə doğru böyük addım hesab etmək olar.

Bütün dövlətlər vahid mövqedə olublar ki, qlobal səviyyədə iqlim sürətlə dəyişir və səbəb antropogen mənşəli istilik effekti yaradan qaz tullantılarıdır. Bunun nəticələri də bəşəriyyətin gələcək inkişafı üçün ciddi təhlükə yaradır. Paris razılaşması əhatə dairəsinə görə həddindən artıq genişdir və faktiki olaraq bütün dünya iqtisadiyyatını əhatə edir. Kioto protokolundan fərqli olaraq, yeni razılaşmada heç bir dövlət üzrə tullantıların azaldılmasına dair kəmiyyət öhdəlikləri nəzərdə tutulmur və bu razılaşma təkcə inkişaf etmiş dövlətləri deyil, bütün dünya dövlətlərini əhatə edir. Azərbaycanda bu sahədə böyük işlər görülüb. Kiçik ölkə olsaq da bu böyük qlobal problemə öz tövhəmizi layiqincə vermişik və bu proses davam etməkdədir".

**❑ Günel MANAFLI**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Nərimanov Rayon Məhkəməsinin həyətində (Montində) 2 maşınlıq daş qaraj satılır**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuzdur. Sənədi var.**

**Telefon: (050) 264-49-99**

YENİ MÜSAVAT

Son səhifə

N 17 (6338) 25 yanvar 2016

# 700 min dollar payladı



Serbiyanın dağ kəndində 70 dollarlıq təqaüdü ilə kərpic bir evdə tək yaşayan 86 yaşlı qadın Avstraliyadakı ərindən qalan 700 min dollar həcmindəki mirasını ona kömək edən kəndlilərə paylayıb. "Vecernje Novosti" qəzetinin xəbərinə görə, Mariya Zlatiç adlı qadının Avstraliyada çalışan ərinin öldüyü ortaya çıxıb. Yaşlı qadın kəndlilərin köməyi ilə lazımi yerlərə müraciət edib və ona qalan mirasını alıb. O, jurnalistlərə açıqlamasında "Yaxınlarda başqa yerə gedəcəyəm, ona görə də pulu dağıtdım. Hazırda təqaüdüm mənə bəs edir".

Məlumatlara görə, Mariya Zlatiç və əri Momlica Zlatiç 1956-cı ildə birlikdə Avstraliyaya gedib. İki il sonra Mariya Zlatiç xəstə anasına baxmaq üçün geri qayıdıb. Bir daha də ərinin yanına qayıtmayıb. Yaşlı qadın əri ilə bir neçə dəfə görüşüb və sonra əlaqə kəsilib. Mirasını isə bir neçə gün əvvəl alıb.



## Çayın xeyri və ziyanı

Gün ərzində çox çay qəbul etmək ziyanlıdır. Bu, əsəb pozğunluğu, qəbzlik, yüksək təzyiq, əl əsməsi, baş ağrısı və yuxusuzluq kimi hallara səbəb ola, revmatizmdən əziyyət çəkənlərə ziyan vura bilər. Həddindən artıq şəkərli çay içmək isə ürək-damar, köklük kimi xəstəliklərə yol açır. Şirin çaydan əl çəkə bilmirsinizsə, dadlandırıcılardan istifadə edə bilərsiniz. Ümumiyyətlə, gün ərzində 4 fincandan artıq və tünd çay içməkdən çəkinin. Əlavə hər bir fincan çayı isə bir stəkan su ilə əvəz edin.

Kiçik qaydalara riayət etsəniz, çayın faydaları arta bilər. Çay xərçəng riskini azaldır. Xüsusilə ağciyər, bağırsaq və dəri xərçəngini. Ağır və yağlı yeməklərdən bir saat sonra içilən çay həzmi asanlaşdırır. Çaya rəng verən birləşmələr damar çəpərlərini gücləndirir. Başda beyin qanaması olmaqla hər cür qanama riskini azaldır. Qan dövranını yaxşılaşdırır. Diş minasını qüvvətləndirir. Diş əti xəstəliklərinə qarşı müqavimət yaradır. Bədəndəki zərərli maddələri yox edir. Böyrəklərin daha yaxşı işləməsini təmin edir.

# Bu kəndin qadınları əkiz dünyaya gətirir

Ukraynanın bu kəndində dünyaya gələn uşaqların əksəriyyəti əkizlərdir. Söhbət Velikaya Kopanya kəndindən gedir. Kənddə, təxminən, 4 min insan məskunlaşıb. Lakin xəritədə bu kəndi rekordçu kimi qeyd etmək olar. Kənddə 61 əkiz uşaq var. Əkizlərin bir-birinə oxşaması isə ən çox müəllimləri çətinliyə salır. Hazırda kənd məktəbində 20 əkiz təhsil alır.

"Müəllimlər həmişə bizə səhv iş dəftəri verir. Mənim dəftərimi qardaşıma, qardaşımın dəftərini mənə verirlər. Bizi təkcə mənim xalıma görə ayırd edə bilər", - deyə Dima Sedak bildirib.

Kənddə belə bir rekord göstəricinin qeydə alınması isə, kənd əhalisinin sözlərinə görə, onların içdiyi sudandır. "Bilmirəm. Deyirlər bu, içdiyimiz müalicəvi sudandır. Mən həmin suyun çıxdığı quyunun yanındakı evdə böyümüşəm. Atam həmişə evdə daha çox o su ilə üzünü yuyardı", - deyə əkiz atası Yuri Şiverya bildirib. Maraqlıdır ki, kənddə bir inək də əkiz bala dünyaya gətirib.





## Bu xəstəlikdən cəmi 100 nəfərdə var

Ölümcül "insomnia" adlı xəstəliyin nadir simptomları var. Bu mərəzə tutulanların bədəni gecə yuxusuna hazırlana bilmir və xəstəlikdən əziyyət çəkənlər yuxusuz qalırlar. Bu, hər gecə təkrarlandığından, insanları ölümə apara bilir. Dünyada yalnız 100 nəfərin bu xəstəliyə tutulduğu insanlar bir neçə aydan çox yaşaya bilmirlər. Xəstəlik bir neçə ay davam edərsə və müalicəsi mümkün olmazsa, beyinə zərər verir. Xəstələrdə tərləmə, titrəmə, yeriməkdə çətinlik, arıqlama, yaddaşsızlıq və bunlara bənzər bir çox hallar özünü göstərir.

Adətən orta yaşlarda başlayan xəstəlik 7 ay - 3 il ərzində insanı öldürür. Bu günədək bu xəstəliyə tutulan ən gənc xəstə 16 yaşını həyatını itirib. Adı açıqlanmayan xəstə hər şeyi cüt gördüyünü, yeriyə bilmədiyini və immunitetinin zəiflədiyini deyirdi. İtaliyan alimlər ötən il bu xəstəliyi müalicə etmək üçün antibiotik hazırlamağa başlayıblar.




QOÇ - Ümumi ovqatınızda mənfi fəsadlar nəzərə çarpacaq. Lakin bu, saat 14-dən o yana keçməyəcək. Çünki qalan müddətdə Göy qübbəsi var gücü ilə sizi sevindirəcək. Naşükürlük etməyin!

BUĞA - Fəaliyyətlə bağlı bəzi uğurlarınız gözlənilir. İşinizdə əsaslı dönüş yaratmaqla buna nail ola bilərsiniz. Sənədləşdirmə məsələlərinə maksimum diqqətlə yanaşın. Uzaq yola çıxmaq məsləhət görülmür.

ƏKİZLƏR - Bacardığınız qədər oturaq işlərə ara verin. Ən azı ona görə ki, bu təqvimdə qazandığınız uğur və zövq yalnız səyyar fəaliyyətlə bağlı olacaq. Qonaq getmək, gəzintiyə çıxmaq da olar.

XƏRÇƏNG - Bu təqvimdə bir qədər neytral mövqedə dayanmağınız məsləhət görülür. Nahardan sonra ciddi və riskli işlərə qol qoymayın. Çünki səhər saat 10:26-dan mənfi Ay bürcünüzdə meydan sulamaqdadır.

ŞİR - Əməkdaşlıq zəminində müəyyən uğurlar əldə edə bilərsiniz. Hətta yeni iş üslubuna keçmək də olar. Amma çalışmalısınız ki, təşəbbüskarlıq qarşı tərəfdən irəli gəlsin.

QIZ - Nahara qədər əsəblərinizi qoruyun ki, sonrakı müddətdə qarşınıza çıxan şanslardan lazımi qədər bəhrələnə biləsiniz. Saat 16-18 arası perspektivli danışıqlarda bəxtiniz gətirə bilər.

TƏRƏZİ - İqlimin qeyri-stabilliyi səhhətinizlə bağlı narahatlıq yaratmasın deyə, özünüzü buna hazırlamalısınız. Göy qübbəsi bu təqvimdə maddi durumunuzun yaxşılaşacağını bəyan edir. Amma yeni işlərə başlamamalısınız.

ƏQRƏB - Ümumi görüntü gərginliklə müşayiət olunsa da, əməkdaşlıq zəminində sizi böyük uğurlar gözləyir. Boş oturmaq haqqında düşünməməlisiniz. Nə qədər aktiv olsanız, nailiyyətləriniz də artacaq.

OXATAN - Qərar verməkdə başqalarının fikirlərinə aludə olmasanız, bu təqvimdən razı qalacaqsınız. İndiki məqamda əlçatmaz olan arzuların arxasınca qaçıb əbəs yerə vaxt itirməyin.

OĞLAQ - İşgüzar əlaqələrdə, eləcə də qarşılıqlı sövdələşmələrdə tədbirli olun. Çünki ulduzların düzümü bu istiqamətdə bəzi maneələrin olacağından xəbər verir. Yalan vəd verməyin.

SUTÖKƏN - Olduqca təzadlı bir təqvimdir. Günün ümumi mənzərəsi atacağınız addımlardan birbaşa asılı olacaq. Həmkarlarınızla mübahisələrə yol verməyin. Nahardan sonra ziyarətgahlara gedin.

BALIQLAR - Risk etməyə lüzum yoxdur. Kiminsə təlimatlarına aludə olmaqdansa, reallığa uyğun addım atın. Unutmayın ki, indi sizin çıxılmaz vəziyyətə düşməyinizi istəyənlər çoxdur.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 13 gün sonra dirildi



ABŞ-da donaraq öldüyü deyilən gənc həkimlərin hazırladığı şorbaların köməyi ilə 13 gün sonra dirilib. Mütəxəssislər donan insanların günlər sonra belə həyatlarının xilas ola biləcəyini açıqlayıblar. Pensilvaniya ştatının Treskov qəsəbəsində donmuş halda tapılan və həkimlərin müdaxiləsi nəticəsində 13 gün sonra oyanan Castin Smit "Yuxudan oyanmış kimiyəm, lakin yuxu deyildi" deyə açıqlama verib.

Smit bir əyləncə məkanından evə qayıdarkən yolda donmuş, sonra atası tərəfindən tapılmışdı. İlkin əlamətlər 12 saat qar altında qalan gəncin öldüyünü göstərib. Lakin həkimlərin uzunmüddətli səyləri nəticəsində Castin yenidən həyata qayıdıb.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300